## 2013-cü ilin xronikası

**23 yanvar** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi Xəlil Akıncının başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. Qonaqları səmimiyyətlə salamlayan sədr türkdilli ölkələrin əməkdaşlığından, o cümlədən iqtisadi-ticari və gömrük sferasında əlaqələrin genişləndirilməsinin əhəmiyyətindən danışmış, bu əməkdaşlığın davamlı inkişafının zəruriliyini vurğulamışdır. Xalqımızın ümummilli lideri Heydər Əliyevin böyük uzaqgörənliklə təşəbbüskarı olduğu qədim İpək Yolunun bərpası ilə bağlı fikirlərini də qonaqların diqqətinə çatdıran DGK sədri bu layihənin bərpasının, eyni zamanda türkdilli ölkələrin iqtisadi-ticari münasibətlərinin inkişafına stimul verdiyini bildirmişdir.

**21 yanvar** tarixində Astara şəhərində Azərbaycan və İran gömrük xidmətlərinin rəhbər vəzifəli şəxsləri arasında görüş keçirilmişdir. Astara Gömrük İdarəsində baş tutan görüşdə Azərbaycan tərəfini Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-leytenantı Əsgər Abdullayevin rəhbərliyi ilə nümayəndə heyəti təmsil etmişdir. Qonşu ölkədən isə bu görüşə İran İslam Respublikası Gömrük İdarəsi rəhbərinin texniki və gömrük məsələləri üzrə müavini Məhəmməd Rza Nadirinin rəhbərliyi ilə bir sıra rəsmilər o cümlədən, Gilan və Ərdəbil əyalətlərinin, Təbriz və Astara gömrük idarələrinin rəisləri, Astara İcra Hakimiyyətinin başçısı və İranın Azərbaycandakı səfirliyinin nümayəndələri qatılmışdır. Tədbiri giriş sözü ilə açan İran İslam Respublikası Gömrük İdarəsi rəhbərinin müavini Məhəmməd Rza Nadiri Azərbaycan və İran arasında mövcud əlaqələrdən danışmışdır. Öz növbəsində, Azərbaycan nümayəndə heyətinin rəhbəri, Dövlət Gömrük Komitəsinin sədr müavini Əsgər Abdullayev bu tədbirin gömrük xidmətləri arasında əməkdaşlığın genişləndirilməsinə, sərhəd-gömrük keçid məntəqələrində gömrük nəzarətinin düzgün təşkil olunması nəticəsində iki ölkə arasında mal və nəqliyyat vasitələrinin keçidinin sürətləndirilməsi və təhlükəsizliyinin təmin edilməsinə töhfə verəcəyinə əmin olduğunu bildirmişdir.

**5-8 fevral** tarixlərində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin və Azərbaycanın Los-Ancelesdəki Baş Konsulluğunun birgə təşkilatçılığı ilə Kaliforniya ştatının Los-Anceles və San-Dieqo şəhərlərində Azərbaycana həsr olunmuş geniş tədbirlər keçirilmişdir. Fevralın 5-də Los-Anceles şəhərinin nüfuzlu “Skirball” Mədəniyyət Mərkəzində “Azərbaycan Los-Anceles ilə görüşür” adı ilə gerçəkləşən tədbirdə Los-Anceles şəhəri və vilayətinin təmsilçiləri, Kaliforniya yerli qanunvericilik orqanının nümayəndələri, universitet professorları, iş adamları, xarici ölkələrin baş və fəxri konsulları, KİV nümayəndələri, Hollivud filmlərinin bəstəkarları və digər mədəniyyət xadimləri, eləcə də Azərbaycan və yəhudi icmalarının üzvləri iştirak etmişlər. Tədbirdə çıxış edən Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev Dövlət Gömrük Komitəsinin mədəni dəyərlərin qorunması və gələcək nəsillərə çatdırılması sahəsində gördüyü işlərdən, sərgidə nümayiş etdirilən eksponatların yüksək bəşəri önəmindən bəhs etmişdir.



**12-15 fevral** tarixlərində İtalyanın Turin şəhərində BMT-nin Avropa İqtisadi Komissiyasının təşkilatçılığı ilə BMT-nin Ticarət və İnkişaf Konfransı (UNCTAD), BMT-nin İnkişaf Proqramı və BMT-nin digər Komissiyalarının birgə iştirakı ilə hazırlanmış "Ticarətin asanlaşdırılmasının həyata keçirilməsi üzrə Təlimat" mövzusunda seminar keçirilmişdir. Seminarın məqsədi yeni hazırlanmış Təlimat sənədinin BMT-nin bütün regionlarında təşviqini və düzgün anlaşılmasını təmin etmək və ayrı-ayrı ölkələrdə ticarətin asanlaşdırılması sahəsində həyata keçirilən təşəbbüslərə dəstək olmaq olmuşdur. Tədbir çərçivəsində "Ticarətin asanlaşdırılmasında gömrüyün rolu" və 'Sərhəddə keçidin sadələşdirilməsi' mövzusunda praktik məşğələlər təşkil edilmişdir. İclasda Azərbaycan Respublikası ilə yanaşı, Albaniya, Bosniya və Hersoqovina, Xorvatiya, Yunanıstan, İtaliya, Monteneqro, Serbiya, Rusiya, Tacikistan, Türkiyə, Ukrayna və müxtəlif beynəlxalq təşkilatların nümayəndələri də iştirak etmişlər. Azərbaycan Gömrük Xidmətini Statistika və İnformasiya Texnologiyaları Baş İdarəsinin rəisi, gömrük xidməti general-mayoru İqbal Babayev təmsil etmişdir. İclasda, Azərbaycan Gömrük Xidməti tərəfindən həyata keçirilən "Bir Pəncərə", "Sərhəddə keçid vaxtının ölçülməsi", "Biznes prosesin təhlili və təkmilləşdirilməsi" və s. kimi digər layihələr barədə məruzə ilə çıxış edilmişdir.

**20 fevral** tarixində Azərbaycan Respublikasının Astara şəhərində Azərbaycan və İran gömrükçüləri arasında gömrük və sərhəd məsələləri ilə əlaqədar növbəti görüş keçirilmişdir. Görüşdə İran İslam Respublikasını Astara Gömrükxanasının rəisi Cahangir Bəxşinin, Azərbaycan Respublikasını isə Dövlət Gömrük Komitəsi Astara Gömrük İdarəsinin rəisi Hikmət Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyətləri təmsil etmişdir. Azərbaycan nümayəndə heyətinin rəhbəri Hikmət Məmmədov qonaqları salamlayaraq iki ölkə arasında tarixi-mədəni əlaqələrdən, eləcə də qarşılıqlı əməkdaşlığa əsaslanan iqtisadi-ticari münasibətlərdən söhbət açmışdır. Öz növbəsində, İran nümayəndə heyətinin rəhbəri

Cahangir Bəxşi azərbaycanlı həmkarları ilə növbəti görüşdən məmnunluğunu ifadə edərək Azərbaycanla İran arasında qarşılıqlı dostluq və mehriban qonşuluq münasibətlərindən bəhs etmişdir.

**26-27 fevral** tarixlərində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyevin rəhbərliyi ilə nümayəndə heyəti Əfqanıstan İslam Respublikasında rəsmi səfərdə olmuşdur. Səfərin ilk günü Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi rəhbərliyinin Əfqanıstan Respublikası maliyyə nazirinin müavini Mubin Şah və Gömrük Xidmətinin Baş direktoru Bismillah Kammavi ilə görüşü keçirilmişdir. Əfqanıstan Respublikası maliyyə nazirinin müavini Azərbaycan nümayəndə heyətini səmimiyyətlə salamlayaraq bu kimi səfərlərin iki ölkə arasında əlaqələrin inkişafına müsbət təsirindən danışmış, eyni zamanda ölkəsinin gömrük xidmətinin strukturu, fəaliyyəti, gələcəkdə bu qurumun daha da təkmilləşdirilməsi istiqamətində həyata keçiriləcək tədbirlər barəsində ətraflı məlumat vermişdir. Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev isə öz növbəsində səmimi qəbula görə təşəkkürünü bildirmiş, istər siyasi, istərsə də iqtisadi-ticari əlaqələrin inkişafında qarşılıqlı səfərlərin əhəmiyyətini vurğulamış, xüsusilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkələrimiz arasında əməkdaşlıq əlaqələrinin inkişafına dəstəyindən ətraflı bəhs etmişdir.

**6 mart** tarixində Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi ilə Ümumdünya Gömrük Təşkilatının birgə həyata keçirdiyi “Konteyner Daşınmalarına Nəzarət” və BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin Mərkəzi Asiya Regional Nümayəndəliyinin “Azərbaycanda və Mərkəzi Asiyada prekursorlara nəzarət” adlı layihələri çərçivəsində “Ford Ranger” markalı xüsusi nəqliyyat vasitəsinin, eləcə də müxtəlif avadanlıqların Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinə təqdim olunması ilə bağlı xüsusi mərasim keçirilmişdir. Mərasimdən öncə Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev BMT-nin Narkotiklər və Cinayətkarlıq İdarəsinin Mərkəzi Asiya üzrə Regional Nümayəndəliyinin rəhbəri Aleksandr Sıçovu və proqram koordinatoru Qalina Fomaidini qəbul etmişdir. BMT ilə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi arasında mövcud əlaqələrdən məmnunluqla söhbət açan DGK sədri 1999-cu ilin yanvar ayından icrasına başlanılan BMT İP və Azərbaycan Hökuməti arasında "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Potensialının Gücləndirilməsi və Məlumatların Ötürülməsi Şəbəkəsinin Yaradılması" layihəsindən, bu layihənin avtomatlaşdırılmış idarəetmə sisteminin yaradılması sahəsində gömrük xidmətinin inkişafına olduqca müsbət təsirindən danışmışdır. Birgə gerçəkləşdirilən layihələrin bütövlükdə BMT İnkişaf Proqramının Dövlət Gömrük Komitəsinə xüsusi diqqət və qayğısının təzahürü kimi qiymətləndirən A. Əliyev avtomatlaşdırılmış sistemin informasiya mübadiləsinə və məlumatların operativ surətdə sərhəddən mərkəzə çatdırılmasına münbit şərait yaratdığını, gömrük prosedurlarının və potensialının güclənidirilməsi üzrə planlaşdırılan fəaliyyətin inkişafına layiqli töhfə verdiyini xüsusi olaraq vurğulamışdır.



**14 mart** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev "BP-Azərbaycan" şirkətinin prezidenti Qordon Birrellinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir. Yeni təyinatı münasibətilə Qordon Birrellini təbrik edən Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev 1994-cü ilin sentyabr ayında ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Bakıda dünyanın ən iri neft şirkətləri ilə imzalanmış "Əsrin müqaviləsi"nin müstəqil Azərbaycanın ictimai-siyasi, iqtisadi həyatında çox mühüm tarixi anlardan biri olduğunu diqqətə çatdırmışdır. Xəzər dənizi hövzəsində hasil edilən neftin əlverişli geostrateji mövqeyə malik ölkəmizin ərazisi vasitəsilə dünya bazarına çıxarılmasının respublikamızın inkişafı baxımından həm iqtisadi, həm də strateji əhəmiyyət daşıdığını qeyd edən A. Əliyev, əfsanədən reallığa çevrilən Bakı-Tbilisi-Ceyhan neft, eləcə də Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin istismara verilməsini məmnunluqla xatırlamış, ümumiyyətlə respublikamızda neft sektorunun inkişafı naminə BP şirkətinin gördüyü işlərdən danışmışdır.

**8 aprel** tarixində Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-leytenantı Rza Həsənəliyev Litva Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Arturas Jurauskasın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir. Görüşdə Azərbaycanla Litva arasında əlaqələrdən məmnunluqla söhbət açılmış, mövcud əməkdaşlığın gələcəkdə daha da genişlənəcəyinə əminlik ifadə edilmişdir. Ölkələrimizin gömrük sferasında əlaqələrinə də toxunulmuş, 2004-cü ildə "Azərbaycan Respublikası Hökuməti və Litva Respublikası Hökuməti arasında gömrük işi sahəsində qarşılıqlı yardım haqqında" imzalanmış sazişin iki ölkənin gömrük xidmətləri arasında əlaqələrin inkişafına stimul verdiyi və gələcəkdə də bu əməkdaşlığın davamlı olacağına əminlik ifadə edilmişdir.

**12 aprel** tarixində Bakıdakı “Avropa” otelində Xəzər-Avropa İnteqrasiya İşgüzar Klubunun təşkilatçılığı ilə Dövlət Gömrük Komitəsi rəhbərliyi və Klubun üzvü olan şirkətlərin nümayəndələri arasında növbəti görüş keçirilmişdir. Tədbirdə Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev, sədrin birinci müavini, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev, Komitənin aidiyyəti idarələrinin rəhbər şəxsləri, Latviya, Moldova və Rumıniyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfirləri, eləcə də Türkiyə, Bolqarıstan, Almaniya, Niderland, İtaliya və Böyük Britaniya səfirliklərinin məsul əməkdaşları və Xəzər-Avropa İnteqrasiya İşgüzar Klubunun üzvü olan 50-dək şirkətin nümayəndələri iştirak etmişlər. Görüşdə CEIBC-nin əsas məqsədlərinin dövlət orqanları və biznes nümayəndələri arasında əlaqələri inkişaf etdirmək, həmçinin neft sektorundan daxil olan gəlirlərin ölkənin qeyri-neft sektorunun inkişafına yönəldilməsinə yardım göstərmək olduğu bildirilmişdir. CEIBC 2002-ci ilin iyununda “Caspian Energy” Beynəlxalq Media Qrupunun fəal iştirakı və Xəzər və Qara dəniz regionunda fəaliyyət göstərən iri neft-qaz şirkətlərinin köməkliyi ilə yaradılmışdır. Klubun sədri Azərbaycan Prezidenti İlham Əliyevdir. “Bu gün sıralarında dünyanın 50 ölkəsindən 500-dən çox şirkət və təşkilatı birləşdirən CEIBC böyük və dinamik inkişaf edən qurumdur. Təşkilat vaxtaşırı olaraq dövlət orqanlarının rəhbər heyətilə Klubun üzvü olan iş adamları arasında görüşlər keçirir, tərəflər qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparır, həmçinin problemlərin həlli istiqamətində rəy və təkliflərlə çıxış edirlər.

**2-3 aprel** tarixlərində Panama Respublikasında ÜGT-COMALEP-Özəl sektor gömrük idarəçiləri arasında birgə forum, Latın Amerikası, İspaniya və Portuqaliyanın Gömrük üzrə Baş direktorlarının XXXIV iclası, 4-5 aprel tarixlərində isə Asiya - Sakit okean regionu, Şimali və Cənubi Amerika: Gömrük xidməti rəhbərlərinin tərəfdaşlıq dialoqu - Ümumi tərəqqi naminə effektiv və təhlükəsiz ticarət mövzusunda Beynəlxalq Konfrans keçirilmişdir. Azərbaycan yeganə ölkə olaraq və respublikamızın gömrük xidmətinin təcrübəsi nəzərə alınaraq bu mötəbər tədbirlərə fəxri qonaq statusunda, müşahidəçi qismində dəvət olunmuşdur. Tədbirlərdə Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyevin rəhbərliyi ilə nümayəndə heyəti iştirak etmişdir. Aprelin 2-də öz işinə başlayan ÜGT-COMALEP-Özəl sektor gömrük idarəçiləri arasında birgə forumda Cənubi Amerikanın, İspaniya və Portuqaliyanın gömrük xidməti rəhbərləri, ÜGT Baş katibi Kunio Mikuriya, ÜGT Baş katibinin müavini Serxio Mucika və bir sıra rəsmi şəxslər iştirak etmişlər. Forumda, əsasən “Uruqvay qətnaməsi”nin təşkili, milli layihələrin uyğunlaşdırılması və qarşılıqlı tanınma, İqtisadi İnkişafın yaradılması üzrə regional strategiya: özəl sektor nədə yardımçı ola bilər?, Dərman saxtakarlığı, qaçaqmalçılığa və dələduzluğa qarşı mübarizə aparmaq üçün birgə panelin yaradılması, Siqaret qaçaqmalçılığına qarşı mübarizə aparmaq üçün xüsusi sektorla milli gömrük idarəsinin direktorları arasında birgə panel və s. məsələlər barəsində müzakirələr aparılmış.

**19 aprel** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev İran İslam Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Möhsün Pak Ayinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir. Görüşdə Azərbaycan-İran

əlaqələrinin hazırki durumu, mövcud imkanlar və gələcək perspektivlər barəsində ətraflı fikir mübadiləsi aparılmışdır. Aydın Əliyev iki qonşu ölkənin istər siyasi-iqtisadi, istərsə də mədəni sahələrdə əlaqələrindən məmnunluqla söhbət açmış, əməkdaşlığın bundan sonra da davamlı olacağına əminliyini ifadə etmişdir. Ölkələrimiz arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini söyləyən DGK sədri bildirmişdir ki, bütün sahələrdə, o cümlədən gömrük sferasında qarşılıqlı əməkdaşlıq yüksək səviyyədədir. Bununla kifayətlənməməli, səylərimizi daha da gücləndirməliyik-deyə sözünə davam edən Komitə sədri iki ölkə arasında ticarətin genişləndirilməsi, "Aslandüz-Horadiz" sərhəd-keçid məntəqəsinin fəaliyyətinin bərpa edilməsi istiqamətində işlərin intensivləşdirilməsinin vacibliyini bildirmişdir.

**22 aprel** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev ölkəmizdə səfərdə olan Gürcüstanın Maliyyə Nazirliyi Gəlirlər Xidmətinin rəisi Laşi Xuçişvilinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir. Görüşdən öncə qonaqlar Fəxri xiyabanda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin məzarı önünə əklil qoymuş, görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarı üzərinə tər güllər düzmüş, Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş Vətən övladlarının xatirəsini anmış, "Əbədi məşəl" abidəsinin önünə əklil qoymuşlar. Sonra Dövlət Gömrük Komitəsində nümayəndə heyəti ilə görüş keçirilmişdir. Görüşdə Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev vurğulamışdır ki, Azərbaycan və Gürcüstanı hələ qədim zamanlardan dostluq və qardaşlıq münasibətləri birləşdirir; ildən-ilə bu münasibətlər daha da dərinləşir və regionda həyata keçirilən birgə layihələr bunun bariz nümunəsidir. Gürcüstan və Azərbaycanın iki dost, qardaş və tərəfdaş ölkələr kimi uğurlu inkişaf yolu ilə sürətlə irəlilədiklərini bildirən Komitə sədri eyni zamanda, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müasir Azərbaycan dövlətinin yaranıb formalaşmasındakı müstəsna xidmətlərini xatırlatmış, dahi şəxsiyyətin layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən bu gün ölkədə həyata keçirilən quruculuq və inkişaf proseslərinin önəmindən bəhs etmişdir. DGK sədri regionda neft-qaz kəmərlərinin çəkilişi və enerji təhlükəsizliyi məsələlərinin həllinin məhz Azərbaycan və Gürcüstanın birgə səyləri nəticəsində mümkün olduğunu, o cümlədən nəqliyyat məsələlərinin həllində də böyük işlər görüldüyünü bildirmiş və Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin həyata keçirilməsini tarixi hadisə kimi qiymətləndirmişdir.

**16-17 aprel** tarixlərində Norveç Krallığının Oslo şəhərində Ümumdünya Gömrük Təşkilatının Avropa Regionu Gömrük Xidməti Rəhbərlərinin 2013-cü il konfransı keçirilmişdir. Konfransda Azərbaycanı Dövlət Gömrük Komitəsinin sədr müavini, gömrük xidməti general-leytenantı Rza Həsənəliyevin rəhbərliyi ilə nümayəndə heyəti təmsil etmişdir. Konfransı Norveç Krallığının maliyyə naziri Sigbjorn Johnsen açaraq gömrük hüquqpozmaları və beynəlxalq cinayətkarlığa qarşı mübarizədə gömrük xidmətinin rolundan ətraflı bəhs etmiş eyni zamanda, qanuni ticarətin asanlaşdırılması və əlaqələndirilmiş sərhəd idarəçiliyinin üzv dövlətlər arasında ümumi sadələşdirmə tədbirləri sırasında yer tutduğunu və bu sahədə Skandinaviya ölkələrinin geniş təcrübəsinin olduğunu bildirmişdir. O, həmçinin

Ümumdünya Gömrük Təşkilatının Qlobal Qalxan Proqramını və “Gömrük prosedurlarının sadələşdirilməsi və harmonizə edilməsinə dair Beynəlxalq Konvensiya”nın (Kioto Konvensiyası) önəmini qeyd etmişdir. S.Johnsen Avropa gömrük xidmətlərinin rəhbərlərinə müraciət edərək iqtisadi böhranın hökm sürdüyü bir zamanda məhdud resurslarla daha böyük işlər görmək zərurətini nəzərə çatdırmış və bunun təmin edilməsi üçün gömrük orqanlarının həm nəzarət, həm də asanlaşdırma tədbirləri çərçivəsində innovativ metodlar tətbiq etmələrinin önəmini vurğulamışdır. O, cari iqtisadi çətinliklərə baxmayaraq ÜGT-nin gördüyü işləri yüksək qiymətləndirmişdir.

**17 aprel** tarixində Gürcüstanın Tbilisi və Batumi şəhərlərində “Sərhədlərdə və sərhədlərdən kənar inteqrəedilmiş ticarətin asanlaşdırılması: islahatlar və tətbiqi” mövzusunda seminar keçirilmişdir. Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq (MARİƏ) Proqramı və Asiya İnkişaf Bankı İnstitutunun (AİBİ) birgə təşkil etdikləri tədbirdə MARİƏ üzv dövlətlərinin İqtisadiyyat və Maliyyə nazirlikləri, eləcə də gömrük xidmətlərinin nümayəndələri iştirak etmişdir. Seminarda Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin nümayəndələri iştirak etmişlər. Tədbirdə Gürcüstan gəlirlər xidmətinin rəis müavini R. Axalaya “Ticarətə yardım üçün Gürcüstanda reformanın hazırlanması və həyata keçirilməsi: təşkilatlararası perspektiv” mövzusunda çıxış edərək, gömrük işi sahəsində Gürcüstanda aparılan islahatlardan, gömrük xidmətinin funksiyalrından və bəyanetmədə və daşınmalarda yeniliklərdən danışmışdır. Bildirilmişdir ki, görülən işlər Gürcüstanın logistik dəhliz kimi inkişafına şərait yaradır.

**13-17 may** tarixlərində xalqımızın Ümummilli Lideri Heydər Əliyevin 90 illik yubileyi ilə əlaqədar Keçmiş Yuqoslaviya Respublikası Makedoniyanın Skopye şəhərində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin təşkilatçılığı ilə bir sıra tədbirlər keçirilmişdir. Bu məqsədlə Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyevin rəhbərliyi altında nümayəndə heyəti Keçmiş Yuqoslaviya Respublikası Makedoniyada səfərdə olmuşdur. Səfərin ilk günü, mayın 14-də Azərbaycan nümayəndə heyətinin Makedoniya Gömrük Xidmətinin rəhbərliyi ilə görüşü keçirilmişdir. Görüşdə iki ölkə arasında bütün sahələrdə, o cümlədən gömrük sferasında əlaqələrin mövcud vəziyyətindən razılıq ifadə olunmuş, qarşılıqlı əməkdaşlığın gələcək perspektivləri müzakirə edilmişdir. Həmin gün Skopye şəhərində yerləşən Müqəddəs Kiril və Mefodi Universitetində Ümummilli Lider Heydər Əliyevin 90 illik yubileyinə və Azərbaycan gömrüyünün inkişafında roluna həsr olunmuş təntənəli mərasim keçirilmişdir. Makedoniya Gömrük İdarəsinin, Universitetin və kütləvi informasiya vasitələri nümayəndələrinin iştirak etdiyi mərasimdə Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev “Heydər Əliyev və Azərbaycan Gömrüyü” adlı məruzə ilə çıxış etmiş, daha sonra isə makedon dilində Ulu Öndərə həsr olunan film nümayiş olunmuşdur. Mayın 15-də Makedoniyanın “Chifte Amam” qalereyasında “Gömrük mədəni irsin keşiyində” adlı sərgi keçirilmişdir. Sərginin açılış mərasimində Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev, Makedoniya Respublikasının Mədəniyyət naziri xanım Elizabeta Kanceska-Milevska, Makedoniya Gömrük İdarəsinin Baş direktoru Vanco Kargov, diplomatik korpusların, ictimaiyyətin və kütləvi informasiya vasitələrinin nümayəndələri

iştirak etmişlər. Mayın 16-da isə Skopyenin Opera və Balet teatrında Azərbaycan və Makedoniya incəsənət ustalarının birgə konserti təşkil olunmuşdur.




**22 may** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev Argentina Respublikasının ölkəmizə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Karlos Dante Rivanı qəbul etmişdir. Görüşdə Azərbaycan-Argentina əlaqələrinin hazırki durumu, mövcud imkanlar və gələcək perspektivlər barəsində ətraflı fikir mübadiləsi aparılmışdır. Argentinalı diplomatı səmimiyyətlə salamlayan və yeni təyinatı münasibətilə təbrik edən Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev iki ölkənin istər siyasi-iqtisadi, istərsə də mədəni sahələrdə əlaqələrindən məmnunluqla söhbət açmış, əməkdaşlığın bundan sonra da davamlı olacağına əminliyini ifadə etmişdir. Ölkələrimiz arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini söyləyən DGK sədri bildirmişdir ki, bütün sahələrdə, o cümlədən gömrük sferasında qarşılıqlı əməkdaşlıq yüksək səviyyədədir. O, iki ölkənin gömrük xidmətləri arasında əlaqələrə toxunaraq, 2011-ci ildə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi nümayəndə heyətinin Argentina Respublikasına, eləcə də Argentina Respublikası Gömrük İdarəsi nümayəndə heyətinin Azərbaycana səfərlərini xatırlatmış, bu səfərlərin ölkələrimizin Gömrük idarələrinin fəaliyyətilə yaxından tanışlıq və əməkdaşlıq imkanlarını nəzərdən keçirmək üçün çox faydalı olduğunu bildirmişdir. DGK sədri Argentinaya səfəri zamanı “Azərbaycan Respublikası Hökuməti və Argentina Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında” imzalanmış sazişin iki ölkənin gömrük xidmətləri arasında əlaqələrin inkişafına stimul verdiyini və tərəflərin inteqrasiyasını sürətləndirdiyini söyləmişdir. Buenos-Ayresdə keçirilən "Azərbaycan gömrüyü bəşəri dəyərlər prizmasından" adlı sərgini də məmnunluqla xatırlayan Komitə sədri respublikamızın Argentina ilə bütün sferalarda əlaqələrin inkişafına xüsusi önəm verdiyini vurğulamışdır.

**5 iyun** tarixində Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı və Azərbaycan Hökuməti

arasında "Gömrük  xidmətinin təkmilləşdirilməsi" layihəsinin 4-cü mərhələsinin imzalanma mərasimi keçirilmişdir. Layihənin məqsədi Azərbaycan Respublikasının gömrük ərazisində daşınan yüklərin hərəkətinə nəzarət etməkdən ibarətdir. Bu sistem vasitəsilə sərhəd gömrük buraxılış məntəqələrindən ölkə ərazisinə idxal və ya tranzit rejimində daxil olan yük daşıyan avtomobillər xüsusi Mexaniki-Elektron kilidlə (Elektron plomb) bağlanacaq və bu kilidlər GPS sistemi ilə təmin olunduğu üçün yükün təyinat gömrük orqanına çatana qədər nəzarət edilməsinə imkan verəcəkdir. Sistemin üstünlüyü ondan ibarətdir ki, yükü göndərən gömrük orqanı ilə təyinat gömrük orqanı arasında tranzit yüklərin daşınmasında hərəkət marşrutundan çıxan faktların qarşısı alınacaq, eyni zamanda bu sistem vasitəsilə ölkə ərazisində gömrük nəzarəti altında yerləşdirilmiş mal və nəqliyyat vasitələri üzrə qaçaqmalçılıq faktlarının qarşısı alınacaqdır. İmzalanma mərasimindən öncə Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev Birləşmiş Millətlər Təşkilatının Azərbaycandakı rezident əlaqələndiricisi və BMT-nin İnkişaf Proqramının rezident nümayəndəsi Antonius Bernardus Broeki qəbul etmişdir. Qonağı səmimiyyətlə salamlayan DGK sədri Aydın Əliyev 1999-cu ilin yanvar ayından icrasına başlanılan BMT İP və Azərbaycan Hökuməti arasında "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Potensialının Gücləndirilməsi və Məlumatların Ötürülməsi Şəbəkəsinin Yaradılması" layihəsinin uğurla davam etdiyini məmnunluqla xatırlamış, bu layihənin avtomatlaşdırılmış idarəetmə sisteminin yaradılması sahəsində gömrük xidmətinin inkişafına olduqca müsbət təsirindən danışmışdır. Komitə sədri xalqımızın ümummilli lideri Heydər Əliyevin bu sahəyə göstərdiyi qayğı nəticəsində Azərbaycan gömrük xidmətinin informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə bağlı həyata keçirdiyi işlərin real nəticələrlə müşahidə olunduğunu, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin birmənalı olaraq İKT-nin tətbiqinə dəstək verdiyini, məhz dövlət başçısının müvafiq sərəncamı ilə 2013-cü ilin “informasiya-kommunikasiya texnologiyaları ili” elan olunduğunu məmnunluq hissi ilə dilə gətirmişdir.

**3-4 iyun** tarixlərində Ümumdünya Gömrük Təşkilatının Bakıdakı Regional Tədris Mərkəzində gömrük nəzarətində mobil skanerlərin tətbiqinə dair Fransanın təcrübəsi mövzusunda seminar keçirilmişdir. Fransalı mütəxəssislərin iştirakı ilə keçirilən seminar Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin və yerli gömrük orqanlarının əməkdaşları üçün nəzərdə tutulmuşdur. Tədbirin açılış mərasimində Dövlət Gömrük Komitəsi Gömrük Nəzarətinin Təşkili Baş İdarəsinin rəisi, gömrük xidməti general-mayoru Şahin Bağırov, Fransanın Rusiyadakı səfirliyinin gömrük attaşesi Aleks Jen və Fransa Gömrük Xidmətinin ekspertləri Erik Şasson və Qiyom Viskonti iştirak etmişlər. Giriş sözü ilə çıxış edən DGK rəsmisi bildirmişdir ki, seminarın məqsədi gömrük nəzarəti zamanı mobil skaner cihazlarının tətbiqi sahəsində Fransa Gömrük Xidmətinin təcrübəsi ilə yaxından tanış olmaq, fransalı gömrükçülərin sözügedən sahədəki işinin özəlliyi barədə ətraflı bilgi əldə etməkdir. Baş İdarənin rəisi nəzərə çatdırmışdır ki, yerlərdə gömrük nəzarətini həyata keçirən əməkdaşlar bu sahədə qabaqcıl ölkələrin iş metodlarını dərindən mənimsəməli və onların yerlərdə uğurlu tətbiqinə nail olmalıdırlar. Azərbaycan və Fransa gömrük xidmətlərinin qarşılıqlı əlaqələrindən söhbət açan Ş. Bağırov iki ölkənin müvafiq qurumlarının kadr potensialının gücləndirilməsi istiqamətindəki əməkdaşlığını yüksək

qiymətləndirmiş, bu münasibətlərin daha da genişləndirilməsinin zəruriliyini vurğulamışdır.

**7 iyun** tarixində Moskva şəhərində hüquq-mühafizə bölmələrinin tərkib hissəsi olan xidməti it və it təlimçisi heyətləri mövzusunda ikinci Qlobal Forum keçirilmişdir. Foruma Azərbaycan, Moldova, Belarus, Ukrayna, Rusiya, Qazaxıstan, Özbəkistan, Türkiyə, Almaniya, Fransa, Latviya, Finlandiya, Yaponiya, Avstraliya, Argentina, Anqola, Seneqal və başqa dövlətlərin gömrük orqanları kinoloji strukturlarının rəhbərləri və nümayəndələri qatılmışlar. Forumun açılış mərasimində Rusiya Gömrük Xidməti sədrinin birinci müavini Vladimir Malinin və Ümumdünya Gömrük Təşkilatının Baş katibi Kunio Mikuriya giriş nitqi söyləmişlər. V. Malinin forumun əhəmiyyətinə toxunaraq, gömrük sahəsində kinoloqlara və onların sevimli dostları olan xidməti itlərə böyük ehtiyacın olduğunu bildirmişdir. Bundan başqa, ÜGT-nin Nəzarət və Sadələşdirmə üzrə Direktorluğunun baş texniki əməkdaşı Pierre Bertrand forumda çıxış edərək bir neçə dövlətin gömrük orqanlarının kinoloji mərkəzləri haqqında məlumat vermiş, eyni zamanda, Azərbaycan, Avstraliya, Almaniya kimi ölkələrin gömrük orqanlarının kinoloji mərkəzlərinin imkanlarından bəhs edən təqdimat nümayiş etdirilmişdir. Forumda Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Kinoloji Mərkəzinin fəaliyyətindən bəhs edən stend iştirakçılar tərəfindən maraqla qarşılanmışdır. Həmçinin Rusiya Gömrük Xidməti sədrinin birinci müavini V. Malinin və ÜGT-nin Baş katibi K. Mikuriya Azərbaycanın stendinə baş çəkmiş və Dövlət Gömrük Komitəsi Kinoloji Mərkəzinin müxtəlif ölkələrin gömrük orqanlarının kinoloji xidmətlərilə peşəkar əməkdaşlığını yüksək qiymətləndirmişlər.

**4 iyun** tarixində Türkiyə Respublikasının İstanbul şəhərində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv dövlətlərin gömrük xidməti rəhbərlərinin ikinci iclası keçirilmişdir. İclasda Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-leytenantı Rza Həsənəliyevin rəhbərliyilə nümayəndə heyəti iştirak etmişdir. Tədbirin açılış mərasimində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Halil Akıncı Şuranın fəaliyyəti və gələcək planlarından, 23 avqust 2012-ci ildə Bişkek zirvə toplantısı zamanı dövlət başçılarının qəbul etdikləri qərarların, o cümlədən gömrük idarələri arasında əməkdaşlığın inkişaf etdirilməsilə bağlı məsələlərin həyata keçirilməsindən ətraflı bəhs etmişdir. Baş katib 5 oktyabr 2012-ci ildə Naxçıvan şəhərində keçirilmiş Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv dövlətlərin gömrük xidməti rəhbərlərinin birinci iclasının Bəyannaməsində nəzərdə tutulmuş işlərin gedişatı haqqında da məlumat vermişdir. Sonra Türkiyə, Azərbaycan, Qırğızıstan və Qazaxıstan gömrük xidmətlərinin rəhbər vəzifəli şəxsləri çıxış etmişlər. Azərbaycan nümayəndə heyətinin rəhbəri öz çıxışında ölkədə uğurlu daxili və xarici siyasət nəticəsində bütün sahələrdə olduğu kimi, gömrük sisteminin də təkmilləşdirildiyini və bunun nəticəsi olaraq son illər Azərbaycan gömrük xidmətinin dinamik inkişaf etdiyini, beynəlxalq standartlara cavab verən müasir layihələrin həyata keçirildiyini tədbir iştirakçılarının diqqətinə çatdırmışdır. Digər çıxışlarda sərhədlərə nəzarət işlərinin səmərəliliyini artırmaq üçün üzv ölkələr arasında ilkin məlumat mübadiləsinin zəruriliyi vurğulanaraq, bununla bağlı mövcud vəziyyətin qiymətləndirilməsi və araşdırmaların aparılması məqsədilə işçi görüşlərin keçirilməsinin zəruriliyi qeyd edilmişdir.

**4-5 iyun** tarixlərində Bakı şəhərində GUAM Ticarət və Nəqletməyə Yardım layihəsinin həyata keçirilməsi üzrə Rəhbəredici Komitənin 18-ci iclası keçirilmişdir. Tədbirdə GUAM üzvü olan ölkələrin - Azərbaycan, Gürcüstan, Ukrayna və Moldovanın müvafiq hökumət və diplomatik xidmət orqanlarının nümayəndələri iştirak etmişlər. İclası giriş sözü ilə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Gömrük Nəzarətinin Təşkili Baş İdarəsinin rəisi, gömrük xidməti general-mayoru Şahin Bağırov açaraq tədbir iştirakçılarını salamlamış və iclasın işində onlara uğurlar diləmişdir. Baş İdarənin rəisi əminliklə bildirmişdir ki, iclasda aparılacaq səmərəli və konstruktiv fikir mübadiləsi ticarətin asanlaşdırılması və daşımalara yardım, GUAM-ın nəqliyyat dəhlizinin təhlükəsiz istifadəsi, narkotik vasitələrin qanunsuz dövriyyəsi, qaçaqmalçılıq və gömrük qanunvericiliyinin pozulması, eləcə də beynəlxalq terrorizmlə mübarizə sahəsində üzv ölkələr arasında qarşılıqlı münasibətlərin möhkəmləndirilməsi və inkişafı yolunda irəliyə doğru daha bir addım kimi qiymətləndiriləcəkdir. Onun sözlərinə görə, GUAM çərçivəsində Ticarət və Nəqletməyə Yardım layihəsi gömrük və sərhəd sahəsində ən cəsarətli planların gerçəkləşdirilməsində, onların fəaliyyətinin təkmilləşdirilməsi və müasirləşdirilməsində, eləcə də əməkdaşlığın gücləndirilməsində region üçün etibarlı platforma kimi çıxış edir. Belə ki, ticarətin asanlaşdırılması və ticarət əlaqələrinin genişləndirilməsi sahəsində ölkələrimizin hökumətləri qarşısında duran strateji məqsədlərin gerçəkləşdirilməsi əvvəlcədən düşünülmüş strateji plan olmadan mümkün deyil. GUAM-ın bu təşkilata üzv olan ölkələrdə, eləcə də daha geniş beynəlxalq miqyasda ticarət dövriyyəsinin artması üçün ideal bünövrə olduğu isə danılmaz faktdır. Daha sonra iclas iştirakçıları müvafiq məsələlər ətrafında müzakirələr aparmış, rəy və təkliflərini bildirmişlər. Sonda GUAM Ticarət və Nəqletməyə Yardım layihəsinin həyata keçirilməsi üzrə Rəhbəredici Komitənin 18-ci iclasının Protokolu imzalanmışdır.

**12 iyun** tarixində Ümumdünya Gömrük Təşkilatının Bakı şəhərində yerləşən Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin rəhbərliyi və Əfqanıstan İslam Respublikası hökumətinin nümayəndə heyəti arasında görüş keçirilmişdir. Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev Əfqanıstan hökumət nümayəndələrini Bakıda görməkdən məmnun olduğunu bildirmiş, Azərbaycanın bu dost ölkə ilə bütün sahələrdə, o cümlədən, iqtisadi münasibətlərin və gömrük əməkdaşlığının inkişaf etdirilməsində maraqlı olduğunu vurğulamışdır. Azərbaycan gömrüyünün tarixindən söhbət açan sədr qeyd etmişdir ki, hələ qədim İpək Yolu dövründə Azərbaycanda gömrük sisteminin mövcudluğu elmi sübutlarla təsdiqini tapmışdır. O, bildirmişdir ki, Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra dövlət quruculuğu sahəsində təxirəsalınmaz vəzifələrdən biri də milli gömrük xidmətinin yaradılması və formalaşdırılması idi. Həmin illərdə Dövlət Gömrük Komitəsi yaradılsa da, lakin mürəkkəb ictimai-siyasi vəziyyət gömrük orqanlarının formalaşmasına imkan vermədi. Yalnız Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra bütün sahələrdə olduğu kimi, gömrük sistemində də islahatlar aparılmış, Dövlət Gömrük Komitəsinin fəaliyyətində ciddi dönüş yaranmışdır. DGK sədri vurğulamışdır ki, bu gün Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan gömrüyünün öz ənənələrini qoruyub saxlaması və daha da təkmilləşdirilməsi işini daim diqqət mərkəzində saxlayır. Hazırda

Azərbaycan Gömrük Xidməti dünya gömrük ailəsində özünəməxsus layiqli bir yer tutmuş və aidiyyəti beynəlxalq qurumlarla əməkdaşlıq əlaqələrini daim inkişaf etdirir.



**11 iyun** tarixdə Ukraynanın Xerson şəhərində Müstəqil Dövlətlər Birliyi üzv dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurasının 57-ci iclası keçirilmişdir. İclasda Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-leytenantı Əsgər Abdullayevin rəhbərliyilə nümayəndə heyəti iştirak etmişdir. İclası Rusiya Federasiyası Federal Gömrük Xidmətinin rəhbəri Andrey Belyaninov açaraq iştirakçıları salamlamışdır. Sonra Xerson vilayəti dövlət administrasiyasının nümayəndəsi çıxışında tədbirdə iştirak edən üzv dövlətlərin gömrük xidmətlərinin rəhbərlərinə öz minnətdarlığını bildirmiş və iclasın işinə uğurlar arzulamışdır. Tədbirin gündəliyinə əsasən, MDB üzv dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurasının 56-cı iclasında qəbul olunmuş qərarların yerinə yetirilməsinin vəziyyəti haqqında Şuranın Katibi iştirakçılara ətraflı məlumat vermiş, 2015-ci ilə qədər Rusiya Gömrük Akademiyasında MDB üzv dövlətlərin gömrük xidmətləri üçün kadrların ixtisas üzrə hazırlığı Konsepsiyasının həyata keçirilməsi barədə Rusiya Federasiyası Federal Gömrük Xidmətinin məlumatı dinlənilmiş və bu Konsepsiyanın yerinə yetirilməsi üzrə işlərin davam etdirilməsi nəzərə alınmışdır. Daha sonra MDB üzv dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurasının Portalının istifadəsi, istismarı, məlumatların yerləşdirilməsi, Portala girişin və idarəetmənin təşkili qaydalarının reqlamentinin üzv dövlətlərin gömrük xidmətlərinin təklifləri nəzərə alınmaqla Rusiya Federasiyası Federal Gömrük Xidməti tərəfindən hazırlanması və baxılması üçün informasiya sahəsində qarşılıqlı fəaliyyətlə bağlı işçi qrupa təqdim etməsi, öz növbəsində, işçi qrupa isə Portalın müasirləşdirilməsi üzrə işi davam etdirmək və nəticələri barədə MDB üzv dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurasının 58-ci iclasında məlumat vermək tapşırılmışdır. Sonda isə MDB

üzv dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurasının 58-ci iclasının 2013-cü ilin dördüncü rübündə Rusiya Federasiyasında keçirilməsi qərara alınmışdır.

**19 iyun** tarixində Rusiya Federasiyası və Azərbaycan Respublikasının dövlət sərhədində yerləşən "Məhərrəmkənd" sərhəd keçid məntəqəsinin inzibati binasında Azərbaycan-Rusiya gömrük xidmətləri nümayəndələrinin işçi qrupunun görüşü keçirilmişdir. Görüşdə Rusiya Federasiyasını Şimali Qafqaz Gömrük İdarəsinin Gömrük nəzarətinin təşkili xidmətinin rəisi Dmitriy Ştenberqin, Azərbaycan Respublikasını isə Dövlət Gömrük Komitəsi Xaçmaz Gömrük İdarəsinin rəisi Sahib Axundovun rəhbərlik etdiyi nümayəndə heyətləri təmsil etmişdir. Səmimilik şəraitində keçən görüşdə Rusiya Federasiyasının "Yaraq-Qazmalar" və Azərbaycan Respublikasının "Samur" sərhəd gömrük buraxılış məntəqələrindən keçən sərnişinlərin və nəqliyyat vasitələrinin hərəkətində yaranan problemlərin aradan qaldırılması üçün tədbirlərin həyata keçirilməsi ilə bağlı müzakirələr aparılmışdır. Belə ki, qeyd olunan tədbirlər çərçivəsində dövlət sərhədinin Rusiya-Azərbaycan ərazisində sərnişinlərin, nəqliyyat vasitələrinin və malların buraxılış məntəqələrindən keçirilməsinin vəziyyəti barədə müəyyən edilmiş əlaqə vasitələri ilə məlumat mübadiləsinin davam etdirilməsi, sərhəd və gömrük xidmətlərində növbələşmənin buraxılış məntəqələrinin işini dayandırmadan həyata keçirilməsi, yük və sərnişin nəqliyyat vasitələrinin hərəkətindəki yubanmaların qarşısını almaq üçün tərəflərin maraqlarını və imkanlarını nəzərə alaraq, bütün kateqoriyadan olan nəqliyyat vasitələrinin gündəlik buraxılmasının təmin edilməsi məqsədilə bütün zəruri tədbirlərin həyata keçirilməsi barədə fikir mübadiləsi aparılmışdır. Qarşılıqlı əməkdaşlığın gələcək perspektivlərinin də müzakirə olunduğu görüşdə tərəfləri maraqlandıran bəzi məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır.

**12 iyun** tarixində Ukraynanın Kiyev şəhərində Avropa İttifaqının Şərq Tərəfdaşlığı Proqramının İnteqrə edilmiş Sərhəd İdarəçiliyi üzrə Öncül Təşəbbüsünün təlimlər komponenti çərçivəsində Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəz tərəfindən tərəfdaş dövlətlər üçün 2010-2013-cü illər regional və milli səviyyədə təşkil olunmuş bir sıra təlimlərin yekunu ilə bağlı konfrans keçirilmişdir. Konfransda Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Gömrük Sahəsində Hüquqpozmalara Qarşı Mübarizə Baş İdarəsinin rəisi, gömrük xidməti general-mayoru Güloğlan Muradlı iştirak etmişdir. O, bildirmişdir ki, tədbirə Avropa İttifaqının Şərq Tərəfdaşlığı Proqramının iştirakçı dövlətlərinin sərhəd xidmətlərinin əməkdaşları ilə yanaşı, Avropa Komissiyası, Beynəlxalq Miqrasiya Təşkilatı, BMT-nin İnkişaf Proqramı, Avropa İttifaqının Sərhəd Yardım Missiyası və bir sıra digər beynəlxalq təşkilatların nümayəndələri də qatılmışdır.

**2-7 iyun** tarixlərində Qazaxıstanın Astana şəhərində Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq (MARİƏ) Proqramının Nəqliyyat sektoru üzrə Əlaqələndirici Komitəsinin 12-ci iclası keçirilmişdir. İclasa Azərbaycan, Əfqanıstan, Çin, Qazaxıstan, Qırğız, Monqolustan, Pakistan, Tacikistan, Özbəkistan və Türkmənistanın nəqliyyat nazirlikləri və gömrük xidmətlərinin, eləcə də MARİƏ, Asiya İnkişaf Bankı (AİB), Yaponiya Maliyyə Nazirliyi, Avropa Yenidənqurma və İnkişaf Bankı, İslam İnkişaf Bankı, Dünya Bankı, Avropa-Qafqaz-Asiya

(TRACECA) nəqliyyat dəhlizi üzrə Hökumətlərarası Komissiyası və Şanxay Əməkdaşlıq Təşkilatının nümayəndələri qatılmışdır. Tədbirdə Azərbaycan nümayəndə heyətinin tərkibində Dövlət Gömrük Komitəsi Gömrük Nəzarətinin Təşkili Baş İdarəsinin nümayəndəsi iştirak etmişdir. İclasın açılış mərasimində tədbir iştirakçılarını Qazaxıstan Respublikasının nəqliyyat və kommunikasiya nazirinin müavini Saken Sarsenov və Asiya İnkişaf Bankının Mərkəzi və Qərbi Asiya Departamentinin (MQAD) Baş direktorunun müavini Hong Vang salamlamışlar. İclasın birinci sessiyasında "Nəqliyyat sektorunun tərəqqisi" mövzusunda məruzəsi ilə MQAD-ın nəqliyyat üzrə baş mütəxəssisi Devid Xill çıxış etmişdir. Məruzədə 2012-ci ildə hər bir 6 dəhliz üzrə görülən işlər barədə danışılmış, transsərhəd müqaviləsi haqqında məlumat verilmişdir. "MARİƏ-də ticarətə inteqrəedilmiş yardım" mövzusunda AİB-nin Şərqi Asiya Departamentinin maliyyə sektoru və regional əməkdaşlıq üzrə dövlət idarəçiliyi idarəsinin direktoru Yin Çen öz məruzəsində Proqramın üç əsas məqsədindən - xərclərin və sərhəddən keçid müddətinin azaldılması, malların və şəxslərin sərbəst hərəkəti və ticarət qaydaları və prosedurlarının şəffaflığından danışmışdır. Nəhayət, iclasın sonuncu günü Mərkəzi Asiya, Cənubi Asiya və Cənubi Qafqazda Dünya Bankının nəqliyyata dəstəyi mövzusu ilə həmin bankın əməkdaşı Jak Bure çıxış etmişdir. Tədbirin sonunda isə MARİƏ Proqramının Nəqliyyat sektoru üzrə Əlaqələndirici Komitəsinin 12-ci iclasının müzakirələrinin qısa xülasəsi hazırlanmış və xülasənin müzakirələri zamanı Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin nümayəndəsi də yaxından iştirak etmişdir.

27-29 iyun tarixlərində Belçika Krallığının Brüssel şəhərində, Ümumdünya Gömrük Təşkilatının Baş qərargahında Gömrük Əməkdaşlıq Şurasının 121/122-ci sessiyasıları keçirilmişdir. Tədbirdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyevin rəhbərliyi ilə nümayəndə heyəti iştirak etmişdir. İyunun 26-da Azərbaycan nümayəndə heyəti Rusiya Federasiyası, Uruqvay, Braziliya, Qazaxıstan, Moldova, Ukrayna və bir sıra dövlətlərin gömrük xidmətlərinin nümayəndələri ilə ikitərəfli görüşlər keçirmiş, görüşlərdə əsasən sessiyanın gündəliyi, eləcə də bu ali quruma keçiriləcək seçkilərlə bağlı müzakirələr aparılmışdır. Sessiyadan öncə, Azərbaycan, Avropa İttifaqı, Rusiya Federasiyası və İrlandiya gömrük xidmətlərinin rəhbərlərinin birgə görüşü gerçəkləşmiş, görüşdə ÜGT sədrinin Avropa region üzrə müavini vəzifəsinə keçiriləcək seçkilərlə bağlı fikir mübadiləsi aparılmışdır. İyunun 27-də Gömrük Əməkdaşlıq Şurasının sessiyası öz işinə başlamışdır. ÜGT-nin Baş katibi Kunio Mikuriya sessiyada hesabat məruzəsi ilə çıxış etmiş, ötən bir ildə ÜGT-nin fəaliyyəti, görülmüş işlər, eləcə də ən önəmli tədbirlər barədə məlumat verilmiş, hesabatla bağlı müzakirələr aparılmışdır. Sonra sessiyada regionlar üzrə aparılan məsləhətləşmələr çərçivəsində 51 ölkəni özündə birləşdirən Avropa regionu üzrə keçirilən görüş öz aktuallığı və prinsipiallığı ilə daha yaddaqalan olmuşdur. İyunun 29-da bir sıra ikitərəfli sazişlərin imzalanması və bəzi ölkələrin beynəlxalq konvensiyalara qoşulması məsələlərinin müzakirəsi ilə davam edən sessiyada daha sonra seçkilər keçirilmişdir. İlk olaraq ÜGT Siyasi Komissiyasına, Maliyyə və Audit komitələrinə namizədlər təsdiqlənmişdir. Sonra, ÜGT sədrinin müavinləri vəzifəsinə seçkilər keçirilmişdir. Azərbaycan Respublikasının Gömrük Xidməti 2013-2014-cü illər üçün Ümumdünya Gömrük Təşkilatı sədrinin Avropa regionu ölkələri üzrə müavini seçilmişdir.

Nəhayət, sessiyanın sonunda qərara alınmışdır ki, növbəti sessiya Brüssel şəhərində, Siyasi Komissiyanın iclası isə İrlandiyanın Dublin şəhərində keçirilsin.



8-9 iyul tarixlərində İran İslam Respublikasının Astara və Biləsuvar gömrük idarələrində Azərbaycan Respublikası və İran İslam Respublikası gömrük xidmətlərinin nümayəndələri arasında ikitərəfli görüş keçirilmişdir. Xatırladaq ki, qeydublind olunan görüşlər Azərbaycan Respublikası və İran İslam Respublikası arasında gömrük işi sahəsində imzalanmış sazişin müddəalarına müvafiq olaraq, İran İslam Respublikasının İqtisadiyyat və Maliyyə İşləri Nazirliyinin təşəbbüsü ilə gerçəkləşmişdir. İyulun 8-də İran İslam Respublikasının Astara Gömrük İdarəsində keçirilən görüşü İran İslam Respublikasının İqtisadiyyat və Maliyyə İşləri Nazirliyi Beynəlxalq Əməkdaşlıq və İctimai Əlaqələr İdarəsinin Baş direktoru cənab Bağhenayat açaraq iştirakçıları salamlamış və 2013-cü ilin yanvar ayında Azərbaycan Respublikası və İran İslam Respublikası gömrük xidmətlərinin nümayəndələri arasında keçirilmiş ikitərəfli görüşü xatırladaraq, belə görüşlərin mütəmadi keçirilməsinin sərhədlərdən keçirilən yük və nəqliyyat vasitələrinin, eyni zamanda sərnişinlərin hərəkətinin sürətləndirilməsində əhəmiyyətli rol oynadığını vurğulamışdır. Bundan sonra Dövlət Gömrük Komitəsi Xarici Əlaqələr İdarəsinin rəisi Dilavər Fərzəliyev çıxış edərək səmimi qəbula və görüşün təşkilinə görə qarşı tərəfə minnətdarlığını bildirmiş, beynəlxalq konvensiyaların müddəaları, ÜGT-nın tövsiyələri və ikitərəfli sazişlərə istinad edərək Azərbaycan və İran gömrük xidmətləri arasında əməkdaşlığın getdikcə daha da inkişaf etməsindən, eyni zamanda gömrük xidmətimizin əldə etdiyi nailiyyətlərdən, o cümlədən 27-29 iyun 2013-cü il tarixdə Belçika Krallığında keçirilmiş Gömrük Əməkdaşlıq Şurasının 121/122-ci sessiyaları zamanı Azərbaycan Respublikasının gömrük xidmətinin 2013-2014-cü illər üçün ÜGT-nin Gömrük Əməkdaşlıq Şurasının Avropa regionu üzrə sədr müavini seçilməsi ilə bağlı tədbir iştirakçılarını məlumatlandırmışdır.

**10-17 avqust** tarixlərində Braziliyanın Rio-de-Janeyro şəhərində Beynəlxalq Muzeylər Şurasının (ICOM) 23-cü Baş konfransı keçirilmişdir. Dörd minə qədər muzey mütəxəssisinin qatıldığı tədbirdə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi "Azərterminalkompleks" Birliyinin direktoru, gömrük xidməti general-mayoru Qambay Əliyevin rəhbərliyilə nümayəndə heyəti də iştirak etmişdir. Xatırladaq ki, Dövlət Gömrük Komitəsi öz fəaliyyətində mədəni-maarif işinə də xüsusi diqqət ayırır. Hələ 2006-cı ilin martında Dövlət Gömrük Komitəsinin Gömrük Tarixi Muzeyi yaradılmış, 2007-ci ilin yanvarında isə DGK "Azərterminalkompleks" Birliyinin inzibati binasında DGK Gömrük Tarixi Muzeyinin bölməsi fəaliyyətə başlamışdır. Gömrük Tarixi Muzeyində Azərbaycan Gömrük Xidmətinin dünya gömrük ailəsində tutduğu yer, ötən illər ərzində keçdiyi yol və fəaliyyəti ətraflı işıqlandırılır. Gömrük Tarixi Muzeyi 2008-ci ildə Milli Muzeylər Şurasına üzv seçilməklə Azərbaycanın muzeyləri ailəsinə daxil olmuşdur. Bundan başqa, Gömrük Tarixi Muzeyi Beynəlxalq Muzeylər Şurasına üzvlüyə qəbul edilməsi üçün bu təşkilata müraciət etmişdir. "Azərterminalkompleks" Birliyinin direktoru qeyd etmişdir ki, konfransda mütəxəssislərin görüşlərinin başlıca məqsədi muzeylər arasında əməkdaşlıq və informasiya mübadiləsindən, yeni dünya təmayülləri ilə tanışlıqdan, əhalinin geniş təbəqələrinin muzeylərə cəlb olunması üzrə yeni ideyaların birgə axtarışından, muzey işi sahəsində yeni mütəxəssislərin hazırlanmasından, peşə etikası məsələlərinin müzakirəsindən, muzey həyatı çərçivəsində peşəkarlıq meyarlarının müəyyənləşdirilməsindən, ümumdünya mədəni dəyərlərinin müdafiəsi və bu sahədə hər hansı qanunsuz fəaliyyətin qarşısının alınmasıdan ibarət olmuşdur.

**9 sentyabr** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev İsrail Gömrük Direktorluğunun Gömrük sərhəd keçid məntəqələri üzrə direktor müavini Avraham Hadadı və ekspertlər- Alon Tassa, Omer Dinur və Gal Orpazı qəbul etmişdir. Qonaqları səmimiyyətlə salamlayan Dövlət Gömrük Komitəsinin sədri Azərbaycanla İsrail arasında təşəkkül tapmış qarşılıqlı, faydalı əməkdaşlıq münasibətlərinin səviyyəsindən məmnunluğunu ifadə etmiş, əlaqələrin gələcəkdə daha da intensivləşəcəyinə ümidvar olduğunu bildirmişdir. DGK sədri iki ölkə arasında bütün sahələrdə əməkdaşlıqdan razılıqla söhbət açmış, xüsusilə bu əlaqələrin genişlənməsində gömrük orqanlarının da üzərinə mühüm vəzifələrin düşdüyünü bildirmiş, hər iki ölkənin gömrük xidmətlərinin qarşılıqlı münasibətlərindən, gələcək perspektivlərdən bəhs etmiş, əməkdaşlığın dərinləşdirilməsi üçün qarşılıqlı fəaliyyətin, təcrübə mübadiləsinin əhəmiyyətini önə çəkmişdir. Azərbaycan Gömrük Xidmətinin İsrailin Gömrük Direktorluğu ilə təcrübə mübadiləsini, qarşılıqlı əməkdaşlığı genişləndirməkdə maraqlı olduğunu nəzərə çatdıran Komitə sədri bu baxımdan ötən il tərəflər arasında imzalanmış sazişin iki ölkənin gömrük xidmətləri arasında əlaqələrin inkişafına stimul verdiyini və tərəflərin inteqrasiyasını sürətləndirdiyini bildirmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə respublikamızda son illər aparılan iqtisadi islahatların müsbət nəticələr verdiyini konkret faktlarla dilə gətirən Komitə sədri Azərbaycan Gömrük Xidmətinin keçdiyi inkişaf yoluna da qısaca nəzər salmış, büdcə gəlirlərinin formalaşmasında, iqtisadi təhlükəsizliyin təmin edilməsində gömrük orqanlarının rolundan danışmış, informasiya texnologiyalarının

tətbiqi, qanunvericilik bazasının möhkəmləndirilməsi istiqamətində həyata keçirilən tədbirlərdən bəhs etmişdir. Səmimi qəbula görə təşəkkürünü bildirən İsrail Gömrük Direktorluğunun Gömrük sərhəd keçid məntəqələri üzrə direktor müavini Avraham Hadad respublikamızda olmaqdan məmnunluğunu ifadə etmiş, Azərbaycan haqqında böyük təəssüratlar əldə etdiyini söyləyərək, həqiqətən ölkəmizdə iqtisadi tərəqqinin, hərtərəfli inkişafın şahidi olduğunu diqqətə çatdırmışdır. Ölkələrimiz arasında iqtisadi, siyasi, mədəni əlaqələrin hazırkı durumunu yüksək qiymətləndirən qonaq ölkəsinin Azərbaycanla bütün sahələrdə əməkdaşlığa xüsusi önəm verdiyini bildirmişdir.



23 sentyabr tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev Türkiyə Respublikası Gömrük və Ticarət nazirinin müavini Fatih Metinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. Qonağı mehribanlıqla salamlayan DGK sədri qardaş ölkənin dövlət rəsmisi ilə görüşdən məmnun olduğunu söyləyərək, ölkəmizin xarici iqtisadi siyasətində Türkiyə Cümhuriyyəti ilə əlaqələrin daha da genişləndirilməsinin vacib amil kimi daim diqqət mərkəzində saxlanıldığını diqqətə çatdırmışdır. Aydın Əliyev iki qardaş ölkə arasında əlaqələrin daim yüksələn xətlə inkişaf etdiyini qeyd edərək bu sıx münasibətlərin daha sarsılmaz olmasında «Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir»-deyən ümummilli lider Heydər Əliyevin əvəzsiz rolu olduğunu bildirmişdir. İki qardaş ölkənin gömrük qurumları arasında əlaqələrə gəlincə, A. Əliyev əməkdaşlığın hazırkı vəziyyətindən razılığını bildirmiş, xüsusilə qarşılıqlı təcrübə mübadiləsinin ümumi işə faydasından bəhs etmişdir. Belə ki, Komitə sədri Azərbaycan Gömrük Xidmətində qaçaqmalçılıqla, xüsusilə narkotiklərlə mübarizə istiqamətində Türkiyə təcrübəsinin tətbiqinin bu sahəyə müsbət təsirindən danışmış, qarşılıqlı əməkdaşlığın əhatə dairəsinin daha da genişləndirilməsinin, bu istiqamətdə həyata keçirilən tədbirlərin gələcəkdə də davam etdirilməsinin zəruriliyini bildirmişdir. Səmimi qəbula və yüksək qonaqpərvərliyə görə təşəkkür edən Türkiyə Respublikası Gömrük və Ticarət nazirinin müavini Fatih Metin ilk öncə Azərbaycan

Respublikası Gömrük Xidmətinin Ümumdünya Gömrük Təşkilatı sədrinin Avropa regionu ölkələri üzrə müavini seçilməsi münasibətilə təbriklərini çatdırmış, qardaş ölkə olan Azərbaycana səfərindən razılıqla söhbət açmış, respublikamızda sürətli iqtisadi inkişaf tempindən xeyli məmnun qaldığını diqqətə çatdırmışdır.



**24 sentyabr** tarixində Bakı şəhərində Beynəlxalq Gömrük Muzeyləri Assosiasiyasının (BGMA) 21-ci konfransı keçirilmişdir. Tədbirdə Azərbaycan da daxil olmaqla 20 ölkənin nümayəndəsi iştirak etmişdir. Həmin gün konfrans iştirakçıları əvvəlcə Fəxri xiyabana gələrək Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsini ehtiramla anmış, abidəsi önünə əklil qoymuş, sonra Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən Vətən övladlarının məzarlarını ziyarət etmişlər. Daha sonra konfransın açılış mərasimi keçirilmişdir. Mərasimdən öncə tədbir iştirakçıları burada Azərbaycan gömrük muzeylərinin təqdim etdiyi eksponatlar və rəsm əsərləri ilə tanış olmuşlar. Konfransın açılışında Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev, BGMA-nın prezidenti Henri Nimaks, Türkiyənin gömrük və ticarət nazirinin müavini Fatih Metin və Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin müavini Sevda Məmmədəliyeva iştirak etmişlər. Çıxışlarda tədbirin əhəmiyyətindən danışılmış, Azərbaycanda gömrük xidmətinin inkişafı, o cümlədən gömrük muzeylərinin fəaliyyəti yüksək qiymətləndirilmişdir. Öz növbəsində, DGK sədri Aydın Əliyev milli gömrük xidmətinin inkişaf tarixi və bu günü barədə geniş məlumat vermiş, muzeylərdə nümayiş olunan eksponatların ümumbəşəri önəmindən danışmışdır.



18 sentyabr tarixində Qazaxıstan Respublikasının Astana şəhərində Asiya İnkişaf Bankının Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq (CAREC) Proqramının Gömrük Əməkdaşlıq Komitəsinin 12-ci iclası, 19-20 sentyabr tarixlərində isə Gömrük Əməkdaşlıq Komitəsinin və Nəqliyyat Sektoru üzrə Əlaqələndirici Komitənin birgə iclası keçirilmişdir. Hər iki iclasda Dövlət Gömrük Komitəsinin nümayəndəsi iştirak etmişdir. CAREC-ə üzv dövlətlərin - Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Tacikistan, Türkmənistan, Monqolustan, Çin, Əfqanıstan və Pakistan gömrük xidmətlərinin, eləcə də Asiya İnkişaf Bankının nümayəndələri və ekspertlərinin qatıldığı Asiya İnkişaf Bankının Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq Proqramının (CAREC) Gömrük Əməkdaşlıq Komitəsinin 12-ci iclasında Qazaxıstan Respublikası Maliyyə Nazirliyinin Gömrük Nəzarəti Komitəsinin sədri Majit Essenbayev və Asiya İnkişaf Bankının Şərqi Asiya Ölkələri üzrə Departamentinin Ərazi Maliyyə Sektoru və Regional Əməkdaşlıq bölməsinin direktoru Yin Çen iclas iştirakçılarını salamlamış, iclasın işinə uğurlar arzulamışlar. Sonra iclasın gündəliyinə əsasən "Gömrük tədbirlərinin qabaqcıl təcrübəyə uyğunlaşdırılmaqla ticarətə dəstəyi", "Nailiyyətlərin əldə olunması üçün sərhəddə idarəçiliyin əlaqələndirilməsi", "Regional tranzit ticarəti" mövzusunda keçirilən müzakirələrdə Asiya İnkişaf Bankının, Yaponiya Gömrük Xidmətinin, Qazaxıstan və Pakistan gömrük xidmətlərinin nümayəndələri və ekspertləri tərəfindən təqdimatlar edilmiş, CAREC üzv dövlətlərin sərhəd-buraxılış məntəqələrində həyata keçirilən sərhəd gömrük prosedurlarının sadələşdirilməsinin ticarətə və nəqliyyata dəstək sahəsində, o cümlədən beynəlxalq ticarətin asanlaşdırılmasında mühüm rol oynadığı vurğulanmışdır. İclasda Azərbaycan Gömrük Xidməti tərəfindən son dövrlər gömrük qanunvericiliyinin və eləcə də gömrük prosedurlarının beynəlxalq standartlara uyğunlaşdırılmaqla onun təkmilləşdirilməsi, yeni Gömrük Məcəlləsi, Azərbaycan Respublikasının sərhəd-buraxılış məntəqələrində "bir pəncərə" prinsipinin tətbiqinin mahiyyəti, məqsədi və bununla əlaqədar görülmüş konkret işlər barədə iclas iştirakçılarına

ətraflı məlumat verilmişdir. İclasın sonunda yekun qətnamə qəbul edilərək CAREC-ə üzv dövlətlərdə mövcud dəhlizlər üzrə infrastrukturun təkmilləşdirilməsi, sərhəd-keçid prosedurlarının sadələşdirilməsi, logistik mərkəzlərin yaradılması, yolların təhlükəsizliyinin artırılması, yolların mühafizəsinin gələcəkdə diqqət mərkəzində saxlanılmasının vacibliyi, eyni zamanda, gömrük xidməti və nəqliyyat sektorunun əməkdaşlığının yuxarıda qeyd olunan məqsədlərə çatmaqda mühüm rol oynadığını nəzərə alaraq, bu cür birgə iclasların gələcəkdə davam etdirilməsi qərara alınmışdır.

**14-21 sentyabr** tarixlərində Bişkek şəhərində MDB iştirakçı dövlətlərin gömrük xidmətlərinin kinoloji strukturlarının çoxnövçülükdə birincilik üzrə III yarışı keçirilmişdir. Qırğızıstan Gömrük Xidməti tərəfindən təşkil olunmuş tədbirdə bu ölkənin, eləcə də Azərbaycan, Qazaxıstan, Rusiya, Ukrayna və Ermənistan gömrük xidmətlərinin kinoloji strukturlarının təlimatçı-kinoloqları iştirak etmişlər. Yarış 5 əsas mərhələ - narkotik vasitələrin yük avtomaşınlarında axtarışı, narkotik vasitələrin minik avtomaşınlarında axtarışı, narkotik vasitələrin əl yüklərində axtarışı, narkotik vasitələrin otaq şəraitində axtarışı və xidməti itlərin ümumi itaətetməsi üzrə təşkil olunmuşdur. Yarışda Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Kinoloji Mərkəzinin kinoloqları uğurlu nəticə əldə etmişlər. Belə ki, kinoloqlarımız komanda hesabında, şəxsi birincilikdə və narkotik vasitələrin minik avtomaşınlarında axtarışında ikinci yerləri qazanmışlar. Yarışın yekunlarına görə, Qazaxıstan 1-ci, Azərbaycan 2-ci, Rusiya Federasiyası 3-cü yerlərə layiq görülmüşdür.

**3 oktyabr** tarixində Qazaxıstan Respublikasının Aktau şəhərində Müstəqil Dövlətlər Birliyi üzv dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurasının 58-ci iclası keçirilmişdir. Tədbirdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-leytenantı Əsgər Abdullayevin rəhbərliyi ilə nümayəndə heyəti iştirak etmişdir. İclası Rusiya Federasiyası Federal Gömrük Xidmətinin rəhbəri Andrey Belyaninov açmış və tədbirdə müzakirəsi nəzərdə tutulan məsələləri iştirakçıların diqqətinə çatdırmışdır. İclasın gündəliyinə əsasən, Şuranın katibi MDB üzv dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurasının 57-ci iclasında qəbul olunmuş qərarların yerinə yetirilməsinin vəziyyəti haqqında iştirakçılara ətraflı məlumat vermiş və bu barədə qərar imzalanmışdır. İiclas zamanı Gömrük İttifaqı və Vahid İqtisadi Məkanın fəaliyyəti barədə Rusiya Federasiyası Federal Gömrük Xidmətinin məlumatının nəzərə alınmasına dair qərar Azərbaycan tərəfindən imzalanmamışdır. Sonda MDB üzv dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurasının 59-cu iclasının 2014-cü ilin ikinci rübündə Azərbaycan Respublikasında keçirilməsi qərara alınmışdır.

**15-17 oktyabr** tarixlərində Bakı şəhərində, Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində ticarət strategiyasına nəzarət üzrə regional seminar öz işinə başlamışdır. Seminarı Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev açmışdır. Seminarda 32 ölkədən 36 nümayəndə iştirak etmişdir. Seminarın təşkilində əsas məqsəd ikili istifadəyə aid edilən əmtəə növlərinin daha dəqiq təsnifatını müəyyənləşdirməkdən ibarət olmuşdur. Diqqətə çatdırılmışdır ki, seminarda

iştirakçılara məhz belə əmtəə növlərinin müəyyən edilməsi ilə bağlı təcrübə və biliklər çatdırılmışdır. Bu barədə Ümumdünya Gömrük Təşkilatının nümayəndələri və ABŞ-dan olan təlimatçı və ekspertlərin mühazirələri dinlənilmişdir. Bundan əlavə, seminar iştirakçıları da əldə etdikləri təcrübəni bölüşmüşlər. Dövlət Gömrük Komitəsinin sədri qeyd etmişdir ki, Azərbaycan Gömrük Xidməti 1995-ci ildən Ümumdünya Gömrük Təşkilatı ilə sıx əməkdaşlıq edir və bu sahədə artıq bir sıra mühüm uğurlar qazanılmışdır. Əliyev tədbirin seminar iştirakçıları olan ölkələrin iqtisadi inkişafı və təhlükəsizliyi baxımından, həmçinin ümumbəşəri bəla olan narkotiklərə qarşı mübarizənin mütəşəkkil və birgə əməkdaşlıq əlaqələri zəminində aparılmasında xüsusi əhəmiyyət kəsb etdiyini vurğulanmışdır. Seminarda "Strateji mallar anlayışı və əhəmiyyəti", "Dövlətin strateji ticarətinə beynəlxalq hüququ çərçivə", "Ticarət strategiyasına nəzarətdə gömrüyün rolu" və digər mövzularda məruzələr dinlənilmiş, fikir mübadiləsi aparılmışdır.

**24 oktyabr** tarixində Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Türkiyə Respublikası Baş Polis İdarəsinin rəisi Mehmet Kılıçların rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir. Qonaqları mehribanlıqla salamlayan Səfər Mehdiyev qardaş ölkənin nümayəndələri ilə görüşdən məmnun olduğunu söyləyərək, ölkəmizin xarici iqtisadi siyasətində Türkiyə Cümhuriyyəti ilə əlaqələrin daha da genişləndirilməsinin vacib amil kimi daim diqqət mərkəzində saxlanıldığını qeyd etmişdir. Səfər Mehdiyev iki qardaş ölkə arasında əlaqələrin daim yüksələn xətlə inkişaf etdiyini xüsusi vurğulayaraq bu sıx münasibətlərin daha sarsılmaz olmasında «Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir»- deyən ümummilli lider Heydər Əliyevin əvəzsiz rolu olduğunu bildirmişdir. Müstəqil Azərbaycanın Gömrük Xidmətinin keçdiyi inkişaf yoluna qısaca nəzər salan Komitə sədrinin birinci müavini istər büdcə gəlirlərinin formalaşmasında, istərsə də iqtisadi təhlükəsizliyin təmin edilməsində gömrük orqanlarının rolundan danışmış, qanunvericilik bazasının möhkəmləndirilməsi, maddi-texniki bazanın gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlərdən bəhs etmişdir. O, iki qardaş ölkənin gömrük qurumları arasında əlaqələrin hazırkı vəziyyətindən razılığını bildirmiş, xüsusilə qarşılıqlı təcrübə mübadiləsinin ümumi işə faydasından bəhs etmişdir. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızda hər bir sahədə olduğu kimi, iqtisadiyyatda da əldə olunan nailiyyətlərdən söhbət açan DGK sədrinin birinci müavini xarici iqtisadi münasibətlərdə Türkiyənin Azərbaycan üçün xüsusi önəm daşıdığını bildirərək, ümumilikdə qardaş ölkənin respublikamızla iqtisadi əlaqələrdə öncül yerlərdə qərarlaşdığını məmnunluqla diqqətə çatdırmışdır. Səmimi qəbula və ətraflı məlumata görə təşəkkür edən Türkiyə Respublikasının Emniyet Genel müdiri Mehmet Kılıçlar qardaş ölkə olan Azərbaycana səfərindən, eləcə də respublikamızda sürətli iqtisadi inkişaf tempindən xeyli məmnun qaldığını diqqətə çatdırmışdır.



**27 oktyabr – 1 noyabr** tarixlərində Qabon Respublikasının İqtisadiyyat, İş və Davamlı İnkişaf Nazirliyinin Gömrük və Vasitəli Vergilər Baş İdarəsinin baş direktoru Mişel Ondinqa Nquanquenin başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana rəsmi səfəri baş tutmuşdur. 28 oktyabr tarixində nümayəndə heyəti əvvəlcə Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad etmiş, məzarı önünə əklil və gül dəstələri qoymuşlar. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunmuş, məzarı üzərinə tər çiçəklər düzülmüşdür. Sonra Şəhidlər xiyabanına gələn qonaqlar ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad etmiş, məzarları üzərinə tər çiçəklər düzmüş, "Əbədi məşəl" abidəsinin önünə əklil qoymuşlar. Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən qonaqlara Şəhidlər xiyabanının tarixi və şəhərimizdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verilmişdir. Sonra Dövlət Gömrük Komitəsində görüş keçirilmişdir. Görüşdə Azərbaycan ilə Qabonun gömrük orqanları arasında əməkdaşlığın perspektivləri müzakirə edilmişdir. Ölkəmizdə gömrük sahəsinin inkişafından danışan komitə sədri Aydın Əliyev bildirmişdir ki, bu görüş Azərbaycan ilə Qabon arasında gömrük sahəsində əməkdaşlığın inkişafına töhfəsini verəcəkdir. Artıq iki ölkənin gömrük orqanları arasında müxtəlif sahələrdə əməkdaşlıq barədə razılığa gəlinmişdir. DGK sədri Azərbaycanda Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisinin fəaliyyət göstərdiyini vurğulamışdır. Mişel Ondinqa Nquanquen bildirmişdir ki, səfərin məqsədi iki ölkənin gömrük orqanları arasında əməkdaşlığın perspektivlərini müzakirə etməkdir. Qabon Azərbaycanın gömrük sahəsində təcrübəsindən faydalanmaq istəyir. Azərbaycanın Ümumdünya Gömrük Təşkilatının tədbirlərində fəal iştirak etdiyini deyən qonaq gömrük sahəsində ölkəmiz ilə əməkdaşlıqda maraqlı olduğunu diqqətə çatdırmışdır. Qabon nümayəndə heyətinin rəhbəri

Aydın Əliyevi Qabona dəvət etmişdir.



6 noyabr tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev ölkəmizdə səfərdə olan Gürcüstanın Kənd Təsərrüfatı naziri Şalva Pipiyanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir. Qonaqları səmimiyyətlə salamlayan Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev vurğulamışdır ki, Azərbaycan və Gürcüstanı hələ qədim zamanlardan dostluq və qardaşlıq münasibətləri birləşdirir; ildən-ilə bu münasibətlər daha da dərinləşir və regionda həyata keçirilən birgə layihələr bunun bariz nümunəsidir. Gürcüstan və Azərbaycanın iki dost, qardaş və tərəfdaş ölkələr kimi uğurlu inkişaf yolu ilə sürətlə irəlilədiklərini bildirən Komitə sədri, eyni zamanda, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müasir Azərbaycan dövlətinin yaranıb formalaşmasındakı müstəsna xidmətlərini xatırlatmış, dahi şəxsiyyətin layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən bu gün ölkədə həyata keçirilən quruculuq və inkişaf proseslərinin önəmindən bəhs etmişdir. DGK sədri regionda neft-qaz kəmərlərinin çəkilişi və enerji təhlükəsizliyi məsələlərinin həllinin məhz Azərbaycanın və Gürcüstanın birgə səyləri nəticəsində mümkün olduğunu, o cümlədən nəqliyyat məsələlərinin həllində də böyük işlər görüldüyünü bildirmiş və Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin həyata keçirilməsini tarixi hadisə kimi qiymətləndirmişdir. Səmimi qəbula görə Dövlət Gömrük Komitəsinin rəhbərliyinə təşəkkür edən Gürcüstanın Kənd Təsərrüfatı naziri Şalva Pipiya Azərbaycana səfərindən və Bakı şəhərinin timsalında ölkədə görülən böyük işlərdən məmnunluğunu bildirmişdir. İki qonşu ölkənin istər siyasi-iqtisadi, istərsə də mədəni sahələrdə əlaqələrinin yüksək səviyyədə olduğunu vurğulayan qonaq, yaxın perspektivdə qarşılıqlı əməkdaşlığın daha da genişləndiriləcəyinə əminliyini ifadə etmişdir.

7 noyabr tarixində Bakıda Müstəqil Dövlətlər Birliyinə (MDB) üzv olan dövlətlərin Gömrük

Xidməti Rəhbərləri Şurasının Hüquq Mühafizə Bölmələri Başçıları Komitəsinin 10-cu iclası keçirilmişdir. Tədbirdə MDB üzvləri ilə yanaşı Latviya və Estoniya gömrük xidmətlərinin nümayəndələri də iştirak etmişlər. MDB İcraiyyə Komitəsinin sədri - icra katibi Serqey Lebedevin tədbir iştirakçılarına müraciəti oxunmuşdur. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev iclası açaraq demişdir ki, Azərbaycanda gömrük xidmətinin qədim tarixi vardır. Ölkəmizin qədim İpək Yolunun üzərində yerləşməsi onun qitələrarası ticarət əlaqələrinin genişlənməsində əhəmiyyətini artırmışdır. Tarixi sənədlərdə göstərilir ki, karvan yollarının keçdiyi Azərbaycanda qədim və orta əsrlər dövründə gömrük vergisi toplayan orqanlar mövcud olmuşdur. Tədbirin keçirilməsini yüksək qiymətləndirən A.Əliyev bildirmişdir ki, gömrük xidməti orqanları dövlətin iqtisadi təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır. MDB-yə üzv olan dövlətlərin gömrük xidmətlərinin qarşılıqlı əməkdaşlığı narkotik və psixotrop maddələrin, silahın, terror qruplaşmalarının qanunsuz yollarla bir ölkədən digərinin ərazisinə keçirilməsinin qarşısını alır. İclasda MDB-yə üzv dövlətlərin gömrük xidməti hüquq mühafizə bölmələri əməkdaşlarının ixtisaslarının artırılması sahəsində əməkdaşlıq məsələlərinə dair Gömrük Xidməti Rəhbərləri Şurasının Hüquq Mühafizə Bölmələri Başçıları Komitəsinin 2013-cü il 23 may tarixli qərarının və Komitənin 2012-2013-cü illər üçün iş planının icrası və perspektiv vəzifələrin müəyyən edilməsi barədə işçi qrupun hesabatı dinlənilmişdir. Daha sonra gömrük sahəsində iqtisadi cinayətlər və hüquqpozmalara qarşı mübarizə üzrə işçi qrupunun əsasnaməsinin, tərkibinin və 2014-2015-ci illər üçün iş planının təsdiq edilməsi və digər məsələlərə baxılmışdır.




**23-24 oktyabr** tarixlərində Moskva şəhərindəki “Eksposentr” mərkəzi sərgi kompleksində XIV Beynəlxalq “Gömrük xidməti: Xarici İqtisadi Fəaliyyət Texnologiyaları - 2013” sərgisi keçirilmişdir. Rusiya Federal Gömrük Xidmətinin təşkil etdiyi bu sərgidə Azərbaycan

Respublikasının Dövlət Gömrük Komitəsi də təmsil olunmuşdur. Sərgidə iştirak edən Azərbaycan nümayəndə heyətinin rəhbəri, DGK “Azərterminalkompleks” Birliyinin direktoru, gömrük xidməti general-mayoru Qambay Əliyev bildirmişdir ki, tədbir rekord sayda ziyarətçi toplamış və həm peşəkar gömrük birliyinin, həm də xarici iqtisadi fəaliyyət nümayəndələrinin, iri nəqliyyat operatorlarının, eləcə də digər təşkilatların böyük marağına səbəb olmuşdur. Sərgini təntənəli şəraitdə Rusiya Federasiyası baş nazirinin birinci müavini İqor Şuvalov və Rusiya Federal Gömrük Xidmətinin rəhbəri Andrey Belyaninov açmışlar. Azərbaycan tədbirdə öz pavilyonu ilə təmsil olunurdu. Pavilyondakı stendlərdən birində ümummilli lider Heydər Əliyevin 90 illiyi ilə bağlı materiallar da nümayiş etdirilmişdir. Azərbaycan-Rusiya ikitərəfli əlaqələri, 2013-cü il avqustun 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin arasında imzalanmış saziş barədə materiallar da bu stendə daxil edilmişdir. Azərbaycan tərəfinin təqdim etdiyi digər bir stenddə Gömrük Tarixi Muzeyinin fəaliyyəti, müxtəlif ölkələrdə keçirilən tədbirlər, sərgi və konfranslar barədə materiallar sərgilənmişdir. Bundan başqa, cari ilin 24-25 sentyabr tarixlərində Bakıda Beynəlxalq Gömrük Muzeyləri Assosiasiyasının XXI konfransı və Baş Assambleyanın iclası ilə bağlı məlumatlar burada öz əksini tapmışdır. Daha sonra Azərbaycan Gömrük Tarixi Muzeyinin internet səhifəsinin və “Azərbaycanın muzeylər ailəsinə daxil olarkən” adlı elektron kitabın təqdimatı keçirilmişdir. Bu mövzularda Azərbaycan Gömrük Tarixi Muzeyinin direktoru Ramiz Ağayev və Muzey Filialının direktoru Sevil Axundova çıxış etmişlər. Görüşdə sərgilərin təşkil edilməsi üzrə bundan sonra da birgə əməkdaşlıq, habelə Sankt-Peterburq şəhərinin arxivlərində və muzeylərində Azərbaycan gömrüyünün tarixi ilə bağlı materialların aşkarlanması məsələləri də müzakirə olunmuşdur.

**4-5 noyabr** tarixlərində Azərbaycan Respublikası və Toqo Respublikası gömrük xidmətləri arasında əməkdaşlığın inkişaf etdirilməsi məsələlərini müzakirə etmək məqsədilə Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-leytenantı Rza Həsənəliyevin başçılıq etdiyi nümayəndə heyəti bu ölkəyə səfər etmişdir. Səfərin ilk günü Toqo Respublikası İqtisadiyyat və Maliyyə Nazirliyinin Baş Gömrük İdarəsinin Baş direktoru Sevon-Tepe Kodjo Adedze ilə ikitərəfli görüş keçirilmişdir. Baş Direktor Toqo Gömrük Xidmətinin tarixi və fəaliyyəti barədə məlumat vermişdir. Yarandığı tarixdən bəri əldə edilən uğurlarla yanaşı, ölkəsinin gömrük xidməti olaraq dövrün tələbatlarına çətinliklə cavab verə bildiklərini dilə gətirən Baş direktor bu sahədə Azərbaycan Gömrük Xidmətinin dəstəyinə ehtiyac duyduqlarını vurğulamış və bu səbəbdən edilən səfərə görə öz dərin təşəkkürünü bildirmişdir. Öz növbəsində, Komitə sədrinin müavini Rza Həsənəliyev qəbula və göstərilən diqqətə görə öz minnətdarlığını bildirərək Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin tarixi və bu sahədə əldə olunan nailiyyətlər barədə məlumat vermişdir. Azərbaycanın dünyanın bir çox ölkələri ilə dostluq və qardaşlıq müstəvisində əməkdaşlıq etdiyini və respublikamızın gömrük orqanlarının beynəlxalq miqyasda gömrük əməkdaşlığının genişləndirilməsi və inkişaf etdirilməsi istiqamətində səylə çalışdığını görüş iştirakçılarının diqqətinə çatdırmışdır. Rza Həsənəliyev hazırkı səfərin də ölkələrimizin gömrük xidmətləri arasında beynəlxalq müstəvidə əməkdaşlığın inkişaf etdirilməsinə və perspektiv məsələlərin öz müsbət həllinin tapmasına töhfəsini verəcəyini bildirmişdir. Daha

sonra Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi tərəfindən Toqo gömrük xidmətinə hədiyyə edilən 2 kinoloji xidmət itinin narkotik vasitələrin axtarışı üzrə təqdimatı keçirilmişdir. Təqdimatdan sonra axtarış itləri Toqo gömrük xidmətinə təhvil verilmişdir. Bundan başqa, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi adından Toqo Respublikası Baş Gömrük İdarəsinə Dövlət Gömrük Komitəsi mütəxəssisləri tərəfindən hazırlanmış proqram məhsulu ilə təchiz edilmiş iki ədəd informasiya köşkü, bir ədəd interaktiv yazı lövhəsi təqdim edilmişdir.

Bununla yanaşı, səfər zamanı DGK sədrinin müavini Rza Həsənəliyev Toqo Respublikası iqtisadiyyat və maliyyə naziri Adji Ote Ayasor ilə də görüşmüşdür. İqtisadiyyat və maliyyə naziri 2010-cu ildə Bakı şəhərində keçirilmiş İslam İnkişaf Bankının 35-ci Konfransı çərçivəsində Azərbaycana səfər etdiyini və ölkəmiz barəsində xoş təəssüratlarından danışmışdır. Azərbaycanda olduğu müddətdə ölkəmizin inkişafından və əldə etdiyi uğurlardan danışan nazir, eyni zamanda Azərbaycan və Toqo gömrük xidmətləri arasında yaranmış bu əməkdaşlığı yüksək qiymətləndirdiyini və gələcəkdə belə bir əməkdaşlığın genişlənərək ölkələrarası səviyyədə inkişaf edəcəyinə ümid etdiyini vurğulamışdır.




**11 noyabr** tarixində Ümumdünya Gömrük Təşkilatının Bakı şəhərindəki Potensialın gücləndirilməsi üzrə Regional Ofisində “Qlobal Qalxan” proqramı çərçivəsində Əfqanıstan Gömrük Xidmətinin əməkdaşları üçün təlim keçirilmişdir. On gün davam edən təlim kursu Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və ÜGT-ı tərəfindən birgə təşkil edilmişdir. Xatırladaq ki, “Qlobal Qalxan” ÜGT-nin proqramı olub, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi, eləcə də İnterpolun dəstəyilə və ABŞ-ın Dövlət Departamenti tərəfindən maliyyələşdirilməklə həyata keçirilir. Tədbirin açılış mərasimində giriş sözü ilə çıxış edən Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Gömrük Nəzarətinin Təşkili

Baş İdarəsinin rəisi, gömrük xidməti general-mayoru Şahin Bağırov Əfqanıstan Gömrük Xidmətinin nümayəndələrini Bakıda görməkdən məmnun olduğunu bildirmiş, Azərbaycanın bu dost ölkə ilə bütün sahələrdə, o cümlədən, iqtisadi münasibətlərin və gömrük əməkdaşlığının inkişaf etdirilməsində maraqlı olduğunu vurğulamışdır. Baş İdarənin rəisi təlim kursunun aktual bir problemə - narkotik və partlayıcı maddələrin hazırlanmasında istifadə olunan kimyəvi vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə məsələlərinə həsr olunduğuna diqqət çəkmiş, kimyəvi silahların, döyüş sursatlarının, partlayıcı maddələrin, eləcə də narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə mübarizə sahəsində daha effektiv mübarizə aparmaq üçün birgə fəaliyyətin vacibliyini vurğulamışdır. Öz növbəsində, Əfqanıstan Gömrük Xidməti Xarici Əlaqələr İdarəsinin rəisi Aimal Basam Rassi göstərilən diqqət və qayğıya görə tədbirin təşkilatçılarına minnətdarlığını bildirmişdir. Problemlərin həllində beynəlxalq əməkdaşlığa, o cümlədən Azərbaycanın təcrübəsinin öyrənilməsinə önəm verdiklərini bildirən Aimal Basam Rassi iki ölkə arasında əlaqələrin mövcud vəziyyətindən, əməkdaşlığın perspektivlərindən və bu kimi görüşlərin, tədbirlərin ikitərəfli əlaqələrin inkişafına müsbət təsirindən danışmış, Azərbaycan və Əfqanıstan arasında bütün sahələrdə, o cümlədən gömrük sferasında əməkdaşlığın daha da genişlənəcəyinə ümidvar olduğunu bildirmişdir.

**13 noyabr** tarixdə Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev Beynəlxalq Valyuta Fondunun Azərbaycan üzrə missiyasının rəhbəri Raca Almarzoginin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir. Qonaqları səmimiyyətlə salamlayan Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev Beynəlxalq Valyuta Fondu ilə Azərbaycan Gömrük Xidməti arasında mövcud əlaqələrdən məmnunluqla söhbət açmış, əməkdaşlığın gələcək perspektivlərindən bəhs etmişdir. DGK sədri Azərbaycan Gömrük Xidmətinin keçdiyi inkişaf yoluna da qısaca nəzər salmış, gömrük sisteminin respublikamız müstəqillik qazandıqdan sonra, xüsusilə 1995-ci ildən bu günə qədər beynəlxalq standartlara cavab verən təkmil bir struktura çevrildiyini diqqətə çatdırmışdır. Xalqımızın ümummilli lideri Heydər Əliyevin diqqət və qayğısı sayəsində gömrük sistemində sürətli ikişaf strategiyasına start verildiyini vurğulayan Komitə sədri istər qanunvericilik bazasının möhkəmləndirilməsində, istərsə də iqtisadi təhlükəsizliyin təmin edilməsində gömrük orqanlarının rolundan danışmış, xüsusilə büdcə gəlirlərinin formalaşması, maddi-texniki bazanın möhkəmləndirilməsi, informasiya texnologiyalarının tətbiqi istiqamətində həyata keçirilən tədbirlərdən bəhs etmişdir. DGK sədri ölkəmizin əsas giriş qapılarında gömrük keçid məntəqələrinin dünya standartlarına uyğun yenidən qurularaq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə istifadəyə verildiyini, mal və nəqliyyat vasitələrinin artıq  avtomatlaşdırılmış qaydada gömrük nəzarətindən keçdiyini, bunun da ticarətin asanlaşdırılması və təhlükəsizliyi işinə müsbət təsirini konkret faktlarla nəzərə çatdırmışdır. Səmimi qəbula və ətraflı məlumata görə Dövlət Gömrük Komitəsi sədri Aydın Əliyevə təşəkkür edən Beynəlxalq Valyuta Fondunun Azərbaycan üzrə missiyasının rəhbəri Raca Almarzogi respublikamızın hərtərəfli inkişafının onda xoş təəssüratlar yaratdığını bildirmişdir.

**12 noyabr** tarixdə Azərbaycan Respublikasının Gömrük Xidməti 2013-2014-cü illər üçün ÜGT-nin Avropa regionu ölkələri üzrə sədr müavini seçilməsi ilə əlaqədar olaraq, Brüssel şəhərində, Ümumdünya Gömrük Təşkilatının Baş qərargahında Avropa Regionu üçün İqtisadi Rəqabətlilik Paketi üzrə seminar keçirilmişdir. Seminar Ümumdünya Gömrük Təşkilatı və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi tərəfindən təşkil olunmuşdur. Tədbiri giriş sözü ilə açan ÜGT-nin uyğunluq və asanlaşdırma üzrə direktoru Qaojanq Ju ÜGT-nin üzv ölkələrin ehtiyacları və iqtisadi rəqabətlilik təcrübələrinə əsaslanaraq, əlavə alətlər hazırlamalı olduğunu vurğulamışdır. Seminarda iştirak edən Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin nümayəndəsi Şahin Bağırov qeyd etmişdir ki, seminarın məqsədi regional səviyyədə iqtisadi rəqabətliliyi genişləndirmək üçün strateji baxışların mübadiləsini asanlaşdırmaqdır. Seminar zamanı iştirakçılar “bir pəncərə” prinsipi, razılaşdırılmış sərhəd idarəçiliyi, kiçik və orta sahibkarlıq, tranzit və informasiya mübadiləsi ilə bağlı təcrübələrini bölüşmüşlər. Avropa regionunun müxtəlifliyini nəzərə alaraq seminar iştirakçıları regional prioritetlər, o cümlədən şəffaflıq, proqnozlaşdırmaq imkanı, düzgünlük, razılaşdırılmış sərhəd idarəçiliyi və gömrüyün modernləşdirilməsi ilə bağlı fikir mübadiləsi aparmış, innovativ təcrübələrin paylaşılması, alt-regional seminarların təşkili məsələlərini müzakirə etmişlər. Seminarın nəticələri Avropa regionu üzrə regional strategiyanın inkişaf etdirilməsi üçün əsas olacaqdır.

**25-26 noyabr** tarixlərində Keçmiş Yuqoslaviya Respublikası Makedoniyanın paytaxtı Skopye şəhərində Ümumdünya Gömrük Təşkilatı Avropa ölkələrinin gömrük təhqiqat və istintaq xidmətləri rəhbərlərinin 20-ci iclası keçirilmişdir. Tədbir Ümumdünya Gömrük Təşkilatının vasitəçiliyi ilə bu qurumun Avropa regionu üzrə sədr müavini statusuna malik olan Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Makedoniya Gömrük İdarəsi tərəfindən birgə təşkil edilmişdir. İclasa 40 ölkənin gömrük strukturlarının və nüfuzlu beynəlxalq təşkilatların rəhbərləri, həmçinin biznes dairələrinin nümayəndələri qatılmışdır. Sərginin açılış mərasimində çıxış edən Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev və Makedoniyanın Gömrük İdarəsinin baş direktoru Vanço Karqov narkomaniyaya qarşı mübarizədə müvafiq strukturların əməkdaşlığının əhəmiyyətini vurğulamışlar. Daha sonra Ümumdünya Gömrük Təşkilatı Avropa ölkələrinin gömrük təhqiqat və istintaq xidmətləri rəhbərlərinin 20-ci iclasının açılış mərasimi keçirilmişdir. İclası ÜGT-nin Avropa regionu üzrə sədr müavini Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev açaraq bildirmişdir ki, Azərbaycan narkotik maddələrin qanunsuz dövriyyəsinə qarşı qətiyyətlə mübarizə aparır. 26 noyabr tarixində Makedoniya Gömrük İdarəsində keçirilən mərasimdə idarənin baş direktoru Vanço Karqov Azərbaycan tərəfinə ölkəsinin gömrük xidmətinə edilən yardıma görə təşəkkürünü bildirmiş, iki ölkənin gömrük orqanları arasındakı qarşılıqlı əlaqələrdən söhbət açmış və əməkdaşlığın bundan sonra da uğurla davam etdiriləcəyinə əminliyini vurğulamışdır. Öz növbəsində, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev iki ölkə arasında istər siyasi-iqtisadi, istərsə də mədəni əlaqələrin inkişafından razılıqla söhbət açmış, eləcə də gömrük xidmətləri arasında əməkdaşlığın bütün sahələrdə genişləndirilməsinin əhəmiyyətinə toxunmuşdur. Komitə sədri Azərbaycan tərəfinin

makedoniyalı həmkarlarına gömrük işi sahəsində yardımlarını bundan sonra da əsirgəməyəcəyini bildirmişdir.




**9-11 dekabr** tarixlərində İrlandiya Respublikasının Dublin şəhərində Ümumdünya Gömrük Təşkilatının Siyasi Komissiyasının 70-ci sessiyası keçirilmişdir. İclasda ÜGT-nin Avropa Regionu üzrə sədr müavini qismində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyevin rəhbərliyi altında nümayəndə heyəti iştirak etmişdir. Sessiyada xarici ticarətdə vergidən yayınma məsələləri və gömrük-özəl sektor əməkdaşlığı daha geniş şəkildə müzakirə edilən iki əsas mövzu olmuşdur. Belə ki, hər iki mövzu ilə əlaqədar olaraq plenar sessiyada aparılan müzakirələrə əlavə olaraq, təklif və tövsiyələrin daha geniş şəkildə müzakirə edilməsi və bu məsələlərlə bağlı daha konkret nəticələrin əldə olunması üçün sessiyanın birinci və ikinci günü ardıcıl olaraq xarici ticarətdə vergidən yayınma və gömrük-özəl sektor əməkdaşlığı məsələləri ayrı-ayrı qruplar şəklində müzakirə edilmişdir. İclasın gündəliyində Harmonik Sistem və Malların Kodlaşdırılması, ÜGT-nin Strateji Planı və 2014-2015-ci illər üçün maliyyə məsələləri və büdcənin formalaşdırılması, ÜGT Direktorlarının seçilməsi ilə əlaqədar mövcud prosedurlar və digər aidiyyəti məsələlər iclas iştirakçılarının diqqətinə çatdırılmış və müzakirə olunaraq qəbul edilmişdir.



**12-13 dekabr** tarixlərində Gürcüstanın paytaxtı Tbilisi şəhərində GUAM Ticarət və Nəqletməyə Yardım layihəsinin həyata keçirilməsi üzrə Rəhbəredici Komitənin 19-cu iclası keçirilmişdir. Tədbirə GUAM-ın üzvü olan ölkələrin və BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının nümayəndələri, eləcə də xarici iqtisadi fəaliyyət iştirakçıları qatılmışdır. İclasda Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi tərəfindən Statistika və İnformasiya Texnologiyaları Baş İdarəsinin rəisi, gömrük xidməti general mayoru İqbal Babayev və Gömrük Nəzarətinin Təşkili Baş İdarəsi rəisinin birinci müavini, gömrük xidməti polkovniki Cavad Qasımov iştirak etmişlər. İclasda müzakirəyə çıxarılan gündəlik məsələlər təsdiq edilmiş, bunun ardınca isə həmin məsələlər - GUAM üzv dövlətləri tərəfindən Ticarət və Nəqletməyə Yardım layihəsinin həyata keçirilməsi üzrə görülən işlər, sərhədlərdən mal və nəqliyyat vasitələrinin keçirilməsi zamanı prosedurların sadələşdirilməsi, Ticarət və Nəqletməyə Yardım layihəsinin İnkişaf Konsepsiyası və GUAM üzv dövlətlərinin gömrük administrasiyaları arasında gömrük nəzarətinin ayrı-ayrı növlərinin qarşılıqlı tanınması haqqında Protokol layihəsinin hazırlanmasının məqsədəuyğunluğu barədə məlumatlar verilmişdir. Tədbirin sonunda Ticarət və Nəqletməyə Yardım layihəsinin növbəti iclasının 2014-cü ilin birinci yarısında Moldova Respublikasında keçirilməsi nəzərə alınmışdır.

**25 dekabr** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev İran İslam Respublikası Baş Gömrük İdarəsi sədrinin müşaviri Məhəmməd Hüseyn Bağinayətin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir. Görüşdə Azərbaycan-İran əlaqələrinin hazırkı durumu, mövcud imkanlar və gələcək perspektivlər

barəsində ətraflı fikir mübadiləsi aparılmışdır. İranlı qonaqları səmimiyyətlə salamlayan Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev iki qonşu ölkənin istər siyasi-iqtisadi, istərsə də mədəni sahələrdə əlaqələrindən məmnunluqla söhbət açmış, əməkdaşlığın bundan sonra da davamlı olacağına əminliyini ifadə etmişdir. Ölkələrimiz arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini söyləyən DGK sədri Aydın Əliyev bütün sahələrdə, o cümlədən gömrük sferasında qarşılıqlı əməkdaşlıq əlaqələrindən razılığını bildirmiş, gələcək perspektivlərdən bəhs etmişdir. Səmimi qəbula görə Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyevə təşəkkür edən İran İslam Respublikası Baş Gömrük İdarəsi sədrinin müşaviri Məhəmməd Hüseyn Bağinayət İran hökumətinin Azərbaycanla münasibətləri heç bir məhdudiyyət olmadan genişləndirməkdə maraqlı olduğunu bildirmiş, gömrük xidməti sahəsində qarşılıqlı əməkdaşlıqdan razılığını ifadə etmişdir.

**23-26 dekabr** tarixlərində Azərbaycan Gömrük Xidmətinin nümayəndə heyəti Özbəkistan Respublikasında səfərdə olmuşdur. Nümayəndə heyətinin üzvləri - Dövlət Gömrük Komitəsi Statistika və İnformasiya Texnologiyaları Baş İdarəsinin rəisi, gömrük xidməti general mayoru İqbal Babayev və Xarici Əlaqələr İdarəsinin rəisi, gömrük xidməti polkovniki Dilavər Fərzəliyev səfər zamanı Daşkənd və Səmərqənd şəhərlərində Özbəkistan Gömrük Xidmətinin məsul şəxsləri ilə görüşlər keçirmiş, özbəkistanlı həmkarları ilə təcrübə mübadiləsi aparmışlar. Səfər “Azərbaycan Respublikası Hökuməti və Özbəkistan Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında” 27 may 1996-cı il tarixli Sazişə əsasən həyata keçirilmişdir. Səfərdə əsas məqsəd iki ölkənin dövlət sərhədlərindən keçən mal və nəqliyyat vasitələri barəsində ilkin məlumat mübadiləsinin təşkili məsələsini müzakirə etmək olmuşdur.